RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 107 (8423) ŞƏNBƏ, 6 iyun 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Regional inkişafın yeni dalğası

## İlham Əliyevin Qarabağ səfərində 9 yeni sosial obyektin açılışı

## Prezidentin cəbhə bölgəsində yaşayan əhaliyə xüsusi diqqətinin göstəricisidir

Bu gün dünyada gedən çətin geosiyasi proseslər, həmçinin qlobal pandemiya ilə mübarizə fonunda Azərbaycanda makroiqtisadi sabitliyin təmini ilə yanaşı, regionların sosial-iqtisadi inkişafına da xüsusi diqqət yetirilir.

Prezident İlham Əliyevin pandemiya dövründə bütün istiqamətlər üzrə həyata keçirdiyi düşünülmüş siyasət regionların hərtərəfli tərəqqisini təmin edib. Regionların inkişafına dair dördüncü dövlət proqramının birinci ili də daxil olmaqla əldə olunan uğurlar, həyata keçirilən layihələr, yatırılan investisiyalar yüksəliş salnaməsinin nümunələridir.

### 19-cu "ASAN xidmət" mərkəzi, 46-cı Olimpiya İdman Kompleksi

Son illərdə regional inkişafla bağlı icra olunan 3 dövlət proqramı və hazırda icrası davam edən 4-cü proqram çərçivəsində bölgələrdə yüzlərlə yeni-yeni ictimai-iaşə obyektləri, zavod və fabriklər, aqroparklar, muzeylər, parklar, gənclər mərkəzləri, idman kompleksləri tikilib istifadəyə verilib. Hətta pandemiya dövründə belə ölkədə heç bir sosial layihə təxirə salınmayıb. Regionlarda yaradılan sosial-iqtisadi infrastrukturlar minlərlə iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artmasına, sosial rifahın yüksəlməsinə səbəb olub.

Cənab İlham Əliyev bu layihələrin reallaşması prosesini hər zaman diqqətdə saxlamaqla yanaşı, açılış mərasimlərində şəxsən iştirak edərək xeyir-duasını verir. Vətəndaşlarla görüşərək səmimi söhbət edir. Onların problemlərini dinləyir və hətta bəzilərinin yerindəcə həlli ilə bağlı tapşırıqlarını verir. İyunun 3-4-də Prezidentin Qarabağ bölgəsinə səfəri zamanı Tərtər, Ağdam və Ağcabədidə bir sıra mühüm obyektlərin açılışında iştirakı, Tərtərdə Olimpiya İdman Kompleksinin, Ağcabədidə "ASAN Həyat" kompleksinin açılışında etdiyi geniş çıxışlar könüllülər üçün də bir yol xəritəsi oldu.

Tərtərdə Olimpiya İdman Kompleksinin açılması ilə bölgələrdə tikilmiş bu mərkəzlərin sayı artıq 46-ya çatdı. Hazırda 50 rayonda Olimpiya İdman komplekslərinin tikintisi davam edir. O layihələr də başa çatandan sonra, ümumiyyətlə, rayonlarda 51 idman kompleksi olacaq.

Ağcabədi "ASAN Həyat" kompleksinə "ASAN xidmət", "ASAN kommunal" mərkəzləri, "ASAN vəkillik" bürosu, Uşaq Psixoloji Sosial İnkişaf Mərkəzi və vətəndaşların istirahəti və əylənməsi üçün bir sıra sahələr daxildir. Ağcabədi regional "ASAN xidmət" mərkəzi Ağcabədi, Ağdam, Beyləqan, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Zərdab rayonlarında qeydiyyatda olan 815 mindən çox vətəndaşa xidmət göstərəcək. Mərkəzdə 207 əməkdaş və 45 könüllü çalışacaq.

Ağcabədi "ASAN Həyat" kompleksinin tərkibində sayca 5-ci "ABAD Food Hall" fəaliyyətə başlayıb. Digər "ABAD Food Hall"arda olduğu kimi, burada da ABAD-çılar tərəfindən qeyri-sənaye üsulu ilə hazırlanmış məhsulların sərgi-satışı təşkil edilib. "ABAD" publik hüquqi şəxsin 2020-ci il ərzində ABAD-çı ailələrinin sayı 16 nəfər artaraq 429-a çatıb və onlara 30-a yaxın xidmət göstərilir. Ağcabədidə açılan "ASAN xidmət" isə sayca 19-cu mərkəz oldu.

Prezident "Könüllülər ili"ndə bir daha adıçəkilən xidmətin könüllüləri ilə görüşdü, gənclərə, ölkə ictimaiyyətinə tövsiyələrini verdi. Həmçinin antiazərbaycançı qüvvələrə növbəti xəbərdarlığını etdi. Eyni zamanda Avropa Şurasının hər zaman Azərbaycana qarşı qərəzli mövqeyinin əsl səbəblərini açıqladı.

Ardı 4-cü səh.

## İsveçin Kralı Əlahəzrət XVI Karl Qustava

Əlahəzrət!

İsveç Krallığının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, dost İsveç xalqına daim rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyun 2020-ci il*

## Prezident İlham Əliyevin maskadan istifadə etməsi hər birimiz üçün nümunə olmalıdır

### Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində ölkə vətəndaşları dayanır

İyunun 5-də Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirildi. Parlamentin Sədri Sahibə Qafarova ilk olaraq onu bildirdi ki, dünən Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkə vətəndaşlarına müraciət edib, Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatı yayılıb.



### Hər bir vətəndaş Operativ Qərargahın tələb və tövsiyələrinə riayət etməlidir

Son vaxtlar vətəndaşların əksəriyyəti karantin rejiminin tələblərinə əməl etmədiyinə görə ölkədə koronavirusla bağlı epidemioloji vəziyyətin pisləşdiyini, xəstəliyə yoluxanlar ilə sağalanlar arasında ciddi fərq yarandığını deyən spiker vurğuladı ki, bununla əlaqədar karantin rejiminin yenidən sərtləşdirilməsi qərara alınıb. Şənbə və bazar günləri Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Abşeron rayonunda əhalinin yaşayış yerlərini və ya olduğu ərazini tərk etməyə qadağa qoyulub. Əhalidən xüsusi karantin rejiminin tələblərinə əməl etmək tələb olunub.

Ardı 3-cü səh.

## Azərbaycan korrupsiyaya qarşı mübarizə sahəsində Avropa Şurasına üzv 50 ölkə arasında 7-ci, MDB məkanında isə 1-ci yerdədir

### Avropa Şurasının antikorrupsiya monitorinq orqanının hesabatı ilə bağlı məlumat

2020-ci il iyunun 3-də Strasburqda Avropa Şurasının antikorrupsiya monitorinq orqanı - Korrupsiyaya Qarşı Dövlətlər Qrupunun (GRECO) 2019-cu ildə fəaliyyətini əks etdirən hesabatın təqdimatı keçirilib.

Hesabat parlament üzvləri, hakimlər və prokurorların fəaliyyətində korrupsiyanın qarşısının alınması məsələlərini əhatə edir.

AZƏRTAC xəbər verir ki, hesabata əsasən, Azərbaycan Respublikası tövsiyələri 61,9 faiz icra edib. Ölkəmiz bu göstərici üzrə Avropa Şurasına üzv 50 ölkə arasında 7-ci yerdə, MDB ölkələri arasında isə 1-ci yerdədir.

Bu yüksək nəticə ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində mövcud olan güclü siyasi iradə ilə bağlıdır. Dövlət idarəçiliyində şəffaflığın gücləndirilməsi, elektron xidmətlərin inkişafı və korrupsiyaya qarşı mübarizə dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə korrupsiyaya qarşı mübarizəyə dair milli strategiya və fəaliyyət planları qəbul olunub, bu sahədə yeni strateji baxışlar və hədəflər müəyyən edilib. Bu strategiyanın icrasına uyğun olaraq həyata keçirilən institusional və qanunvericilik islahatları, yaradılan elektron hökumət infrastrukturu, vətəndaş cəmiyyəti ilə qurulan sıx əməkdaşlıq və geniş maarifləndirmə tədbirləri antikorrupsiya siyasətinin təzahürləridir.

Korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlar bu sahədə dövlət siyasətinin formalaşması, cinayət təqibinin həyata keçirilməsi və dövlət qurumları tərəfindən preventiv tədbirlərin icrası istiqamətlərində sistemli fəaliyyət həyata keçirirlər.

Dövlət xidmətlərinin göstərilməsində korrupsiya hallarını tam istisna edən "ASAN xidmət" modeli beynəlxalq səviyyədə ən yaxşı təcrübə kimi qəbul edilir. Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə yaradılan və Azərbaycan brendi olan "ASAN xidmət" bir sıra dövlətlər tərəfindən öyrənilir və tətbiq edilir.

Korrupsiyaya qarşı mübarizə və açıq hökumətin təşviqi üzrə Milli Fəaliyyət planları dövlət orqanları tərəfindən yüksək səviyyədə icra olunur. Vətəndaş cəmiyyəti institutlarının apardıqları müstəqil monitorinqlərin nəticələri Milli Fəaliyyət planlarının uğurlu icrasını bir daha təsdiq edib.

Bu gün Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilən müsbət dinamika beynəlxalq antikorrupsiya reytinqlərində də öz əksini tapıb. Ölkəmiz BMT, Avropa Şurası, OECD və Beynəlxalq Antikorrupsiya Akademiyası ilə sıx əməkdaşlıq əlaqələri qurub və bu fəaliyyətdə də mühüm irəliləyişlər əldə edib. Azərbaycan Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO) və OECD-nin Antikorrupsiya Şəbəkəsinin 3 qiymətləndirmə raundunu uğurla keçib. Bu isə ölkəmizdə həyata keçirilən tədbirlərin Avropa standartlarına uyğunluğunun indikatorudur.

## Təəssüf ki, məsuliyyət hissi yoxdur

### Koronavirusla mübarizədə qazandığımız nailiyyətləri buna görə əldən verib tam qapalı rejimə keçirik

Azərbaycanda hökumətimiz tərəfindən koronavirusun (COVID-19) birinci dalğasına qarşı həyata keçirilən çevik və effektiv tədbirlər nəticə verdi və demək olar ki, qısa zamanda ölkəmizdə sanitar-epidemioloji vəziyyət nəzarət altına alındı. Məhz bunun nəticəsində ölkəmizdə pandemiya ilə əlaqədar məsələləri ciddi nəzarətdə saxlamaq, virusun geniş yayılmasının qarşısını almaq və insanların həyatını maksimum şəkildə qorumaq mümkün oldu.

Xüsusi karantin rejimi dövründə yoluxma hallarının sayı minimuma endirilmiş, ölkəmizdə ölüm halları çox aşağı səviyyədə olmuş, xüsusi rejimli xəstəxanalarda müalicə olunaraq sağalanların sayı yeni yoluxanların sayını üstələmişdir.

Amma təəssüflə qeyd etməliyik ki, xüsusi karantin rejimi yumşaldılandan və sərt qadağalar aradan qaldırılandan sonra yeni yoluxma hallarının sayında artım müşahidə olunmağa başlanmış, əldə edilmiş pozitiv nəticəni qoruyub saxlamaq mümkün olmamışdır.

### Məhdudlaşdırılma yenidən aktivləşdirildi

Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov məlumat verdi ki, son günlər yoluxma dərəcəsinin artmasına, sağalanların sayının yoluxanların sayından xeyli geri qalmasına səbəb vətəndaşların məsuliyyətsizliyidir.

Ardı 7-ci səh.



## Gəmilər səfərə çıxır

### Hər gün dəniz nəqliyyatı ilə minlərlə ton yük daşınır

Dünyada koronavirus pandemiyası hələ hökm sürsə də, dəniz və okeanlarda, iri göllərdə və çaylarda yüzlərlə gəmi üzməkdə, hərəkətdədir, belə demək mümkünsə, iş başındadır. Bunların arasında Azərbaycan gəmiləri də az deyil. Onlar həm Xəzərdə, həm də dünya sularında üzür və indiki çətin dövrdə ölkədən-ölkəyə, sahildən-sahilə müxtəlif təyinatlı yüklər daşıyır.

Cari ilin aprel ayında dəniz nəqliyyatı ilə ümumilikdə 58 min 634 ton yük daşınıb ki, bunların da dəyəri 28,1 milyon ABŞ dolları təşkil edib. Dövlət Gömrük Komitəsinin məlumatına görə, ay ərzində dəniz nəqliyyatı ilə ixrac olunan 28 min 757 ton yükün dəyəri 7,9 milyon dollar olub. Bu nəqliyyat növü ilə idxal edilən yüklərin həcmi 29 min 877 ton, dəyəri isə 20,1 milyon dollar təşkil edib.

Hazırda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) onlarca gəmisi səfərdədir. Bununla yanaşı, bir sıra gəmilərimizin ölkənin gəmi təmiri zavodlarında təmiri başa çatıb və onlar da yaxın vaxtlarda dənizə çıxacaq.

Keçən ilin dekabr ayında Prezident İlham Əliyevin iştirakı ilə istismara verilən və ilk milli istehsalımız olan tanker tipli "Laçın" gəmisinin Azərbaycan bayrağı ilə xarici sularda fəaliyyət göstərməsinə qərar verilib. Bu, uzunluğu 141, eni 16,9 metr olan yeni nəsil tankerdir.

Dizel yanacağı ilə yüklənmiş "Laçın" tankeri artıq ilk səfərinə hazırdır. Tanker Bakı Limanından Gürcüstanın Kulevi limanına yola düşəcək. Volqa-Don kanalı ilə Rusiyanın daxili sularından keçərək Kulevidə də əlavə yüklənmə olduqdan sonra Türkiyəyə doğru istiqamət alacaq. "Laçın"ın apardığı yükün Türkiyənin Gebze limanına çatdırılması planlaşdırılır.

Daimi heyəti 11 nəfərdən ibarət gəmi bundan sonra Qara və Aralıq dənizləri hövzələrində maye yükdaşımaları həyata keçirəcək.

Ardı 4-cü səh.

## Rusiya Ermənistana güzəştə getmir

### Paşinyanın xarici siyasəti işğalçı ölkəni fiaskoya uğradıb

Ermənistanın bütün cəhdlərinə rəğmən bu ölkənin Rusiyadan aldığı qazın qiymətində hələ də hansısa güzəşt edilməsi gözlənilmir. Buna görə Nikol Paşinyan iqtidarı ciddi tənqid hədəfinə çevrilib. Xüsusən də Rusiyanın Gürcüstana satdığı qazın qiymətini aşağı salması bu prosesi daha da qızışdırıb. Ermənistanın "Vətəndaş şüuru" ictimai təşkilatının sədri Narek Samsonyan bu xüsusda bildirir: "Rusiya Gürcüstana tədarük edilən qazın tarifini 15 faiz aşağı saldı. Nikol faydasız, Nikol yalançı, Nikol cinayətkar, Nikol yaramaz..."

Qeyd edilib ki, ruslar dost olmayan Gürcüstana qazın qiymətini aşağı salırlar, strateji müttəfiq Ermənistana isə qiyməti qaldırırlar. Bütün bunlara əsas səbəb isə Ermənistanın baş naziri Nikol Paşinyanın yarıtmaz siyasətidir. Xatırladaq ki, qaz məsələsi sonuncu dəfə Ali Avrasiya İqtisadi İttifaqının iclasında müzakirə predmeti olub. Burada Nikol Paşinyan qurumun ümumi enerji bazarının yaradılması və qaz qiymətlərinə vahid tariflə yanaşma məsələsini həll etmir. Buna cavab olaraq Rusiya Prezidenti Vladimir Putin bildirib ki, vahid tarif yalnız vahid büdcə və vergi sisteminin olduğu bazarda tətbiq edilə bilər: "Bu inteqrasiya səviyyəsinə çatmayana qədər qazın qiymətləri bazar şərtləri əsasında formalaşdırılmalı, tədarükçülərin xərcləri və investisiyaları nəzərə alınmalı və istehsalata yatırılan kapitala uyğun gəlir dərəcəsi təmin edilməlidir".

Ardı 4-cü səh.

# “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddə 1485; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694) aşağıdakı dəyişikliklər edilsin:

1. 12.2.3-cü maddədən “yaxud ən azı üç il müddətində azadlıqdan məhrum edilmiş şəxsdirsə” sözləri çıxarılsın.

2. 16-cı maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 16. Azərbaycan Respublikasında və ya Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün dövlət rüsumunun dərəcələri

| Dövlət rüsumu tutulmalı olan hərəkətlər | Dövlət rüsumunun məbləği |
|---|---|
| 16.1. Pasportların və vizaların verilməsinə görə: | |
| 16.1.1. ümumvətəndaş pasportlarının alınması məqsədilə sənədlərin səfirlikdə və ya konsulluqda tərtib edilib göndərilməsinə görə | 25 ABŞ dolları |
| 16.1.2. ölkəyə qayıtmaq üçün pasportu əvəz edən qayıdış şəhadətnaməsinin verilməsinə görə | 10 ABŞ dolları |
| 16.1.3. səfirliklərə və konsulluqlara vizaların verilməsinə dair göstərişlərin göndərilməsinə görə | 4 manat |
| 16.1.4. tranzit vizalarının və birdəfəlik giriş vizalarının rəsmiləşdirilməsinə görə | 20 ABŞ dolları |
| 16.1.5. çoxdəfəlik giriş vizalarının rəsmiləşdirilməsinə görə | 350 ABŞ dolları |
| 16.2. Vətəndaşlıq məsələləri ilə əlaqədar sənədlərin rəsmiləşdirilməsinə görə: | |
| 16.2.1. vətəndaşlığın bərpa edilməsi üçün vəsatətin rəsmiləşdirilməsinə görə | 60 ABŞ dolları |
| 16.2.2. vətəndaşlığa xitam verilməsi üçün vəsatətin rəsmiləşdirilməsinə görə | 60 ABŞ dolları |
| 16.3. Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatına görə: | |
| 16.3.1. nikahın qeydə alınmasına görə | 10 ABŞ dolları |
| 16.3.2. yetkinlik yaşına çatmamış ümumi uşaqları olmayan ər-arvadın qarşılıqlı razılığı əsasında nikahın pozulmasının qeydə alınmasına görə | 40 ABŞ dolları |
| 16.3.3. Qanunla müəyyən edilmiş qaydada xəbərsiz itkin düşmüş, yaxud fəaliyyət qabiliyyəti olmayan hesab edilmiş şəxslə nikahın pozulmasının qeydə alınmasına görə | 5 ABŞ dolları |
| 16.3.4. soyadın, adın və ata adının dəyişdirilməsinin qeydə alınmasına görə | 20 ABŞ dolları |
| 16.3.5. vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınması barədə təkrar şəhadətnamələrin verilməsinə görə | 10 ABŞ dolları |
| 16.3.6. vətəndaşlıq vəziyyəti aktlarının qeydlərində dəyişikliklərin, düzəlişlərin və əlavələrin edilməsi və onların bərpası ilə əlaqədar şəhadətnamələrin verilməsinə görə | 10 ABŞ dolları |
| 16.3.7. xarici ölkələrin qeydiyyat orqanlarında nikahın qeydə alınması məqsədilə ailə vəziyyətinə dair arayışın verilməsinə görə | 10 ABŞ dolları |
| 16.4. Sənədlərin sorğu əsasında alınmasına görə: | |
| 16.4.1. sənədlərin sorğu əsasında alınmasına görə (hər sənəd üçün): | |
| 16.4.1.1. Azərbaycan Respublikasında | 4 manat |
| 16.4.1.2. ölkə xaricində | 10 ABŞ dolları |
| 16.5. Sənədlərin leqallaşdırılmasına görə: | |
| 16.5.1. Azərbaycan Respublikasında | 4 manat |
| 16.5.2. xarici ölkədə | 10 ABŞ dolları |
| 16.6. Notariat hərəkətlərinin aparılmasına görə: | |
| 16.6.1. Azərbaycan Respublikasının ərazisində yerləşən daşınmaz əmlak istisna olmaqla, əmlakdan, o cümlədən nəqliyyat vasitələrindən istifadə etmək və ona sərəncam vermək, kredit əməliyyatlarını yerinə yetirmək hüququ verən etibarnamələrin təsdiqinə görə | 20 ABŞ dolları |
| 16.6.2. poçt vasitəsilə daxil olmuş pul vəsaitlərinin, bağlamaların, korrespondensiyaların bank idarələrindən alınması və ona sərəncam verilməsi barədə etibarnamələrin təsdiqinə görə | 20 ABŞ dolları |
| 16.6.3. müqavilələrin təsdiqinə görə: | |
| 16.6.3.1. nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsinə dair müqavilələrin təsdiqinə görə | 50 ABŞ dolları |
| 16.6.3.2. qiymətləndirilən digər müqavilələrin təsdiqinə görə | 150 ABŞ dolları |
| 16.6.3.3. əmlak bölgüsü, zaminlik və digər qiymətləndirilməyən müqavilələrin təsdiqinə görə | 30 ABŞ dolları |
| 16.6.4. sənədlərin surətlərinin və sənədlərdən çıxarışların düzgünlüyünün təsdiqinə görə | 10 ABŞ dolları |
| 16.6.5. sənədlərin bir dildən başqa dilə tərcüməsinin düzgünlüyünün təsdiqinə görə (hər səhifə üçün): | |
| xarici dillərdən | 10 ABŞ dolları |
| xarici dillərə | 20 ABŞ dolları |
| 16.6.6. sənədlərdəki imzanın, o cümlədən tərcüməçinin imzasının həqiqiliyinin təsdiqinə görə (hər sənəd üçün) | 20 ABŞ dolları |
| 16.6.7. miras əmlakın mühafizəsi üçün tədbirlərin görülməsinə görə | 40 ABŞ dolları |
| 16.6.8. vəsiyyətnamələrin təsdiqinə görə | 50 ABŞ dolları |
| 16.6.9. vəsiyyətnamənin depozitə qəbul edilməsinə görə | 30 ABŞ dolları |
| 16.6.10. vərəsəlik hüququ haqqında şəhadətnamənin verilməsinə görə | 100 ABŞ dolları |
| 16.6.11. sənədlərin (vəsiyyətnamə istisna olmaqla) saxlanmaq üçün qəbul edilməsinə görə | 20 ABŞ dolları |
| 16.6.12. öhdəliyin icra predmetinin saxlanmaq üçün qəbul edilməsinə görə (hər ay üçün) | 20 ABŞ dolları |
| 16.6.13. pul məbləğlərinin və qiymətli kağızların depozitə qəbul edilməsinə görə (hər ay üçün) | 20 ABŞ dolları |
| 16.6.14. icra qeydlərinin aparılmasına görə 10 ABŞ dolları | |
| 16.6.15. ər-arvadın ümumi əmlakındakı paya mülkiyyət hüququ haqqında şəhadətnamələrin verilməsinə görə | 10 ABŞ dolları |
| 16.6.16. şəxsin sağ olması və şəxsin müəyyən yerdə olması faktlarının, şəxsin fotoşəkildəki şəxslə eyniliyinin və sənədlərin təqdim olunduğu vaxtın təsdiq edilməsinə görə | 10 ABŞ dolları |
| 16.6.17. dəniz protestlərinin tərtib edilməsinə görə | 10 ABŞ dolları |
| 16.6.18. sübutların təmin edilməsinə görə | 10 ABŞ dolları |
| 16.7. Digər konsul əməliyyatlarına görə | 10 ABŞ dolları |

3. 17.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

“17.7. Diplomatik və ya xidməti pasporta malik olan, xarici ölkələrdə təhsil alan (müvafiq təsdiqedici sənəd təqdim edildikdə), dövlət xətti ilə pedaqoji fəaliyyət göstərən, xarici ölkələrin cəzaçəkmə müəssisələrindən azadlığa buraxılan, xarici ölkələrdən deportasiya, readmissiya, ekstradisiya edilən, insan alveri qurbanı olan, yaxud 18 yaşına çatmayan Azərbaycan Respublikasının vətəndaşlarına ölkəyə qayıtmaq üçün pasportu əvəz edən qayıdış şəhadətnaməsinin verilməsinə görə dövlət rüsumu tutulmur. Bu maddənin birinci cümləsində göstərilən hallardan başqa digər hallarda xarici ölkədə ümumvətəndaş pasportunu itirmiş və ya həmin pasportu oğurlanmış Azərbaycan Respublikasının vətəndaşı bu barədə xarici ölkənin müvafiq polis orqanı tərəfindən verilmiş təsdiqedici sənəd təqdim etdikdə ona qayıdış şəhadətnaməsinin verilməsinə görə dövlət rüsumu tutulmur.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 may 2020-ci il*

# Azərbaycan Respublikası Prezidentinin “Dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2014-cü il 24 noyabr tarixli 375 nömrəli, “Tikinti obyektlərinin sökülməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2015-ci il 22 may tarixli 534 nömrəli və “Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında” 2017-ci il 4 aprel tarixli 1313 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1034-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 noyabr tarixli 375 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1415; 2017, № 11, maddə 2018; 2018, № 2, maddə 218) ilə təsdiq edilmiş “Dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissəyə “orqanlarının” sözündən sonra “, Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin (sərəncamına verilmiş torpaq sahəsində bu qurumun sərəncamında olduğu müddətdə həyata keçirilən şəhərsalma fəaliyyətinə münasibətdə) (bundan sonra - Agentlik)” sözləri əlavə edilsin;

1.2. 3-cü hissənin adına və 3.1-ci bəndə “orqanları” sözündən sonra “, Agentlik” sözü əlavə edilsin;

1.3. 3.2-ci, 3.3-cü, 3.4-cü, 3.5-ci bəndlərə, 3.5.1-ci, 5.1.1-ci (birinci halda) və 5.1.2-ci yarımbəndlərə ismin müvafiq hallarında “orqanları” sözündən sonra ismin müvafiq hallarında “və Agentlik” sözləri əlavə edilsin;

1.4. 3.3-cü bəndə “orqanından” sözündən sonra “və Agentlikdən” sözləri əlavə edilsin;

1.5. 4.1-ci bəndə “sərhədləri daxilində” sözlərindən sonra “(Agentliyin sərəncamındakı torpaq sahələri istisna olmaqla)” sözləri əlavə edilsin;

1.6. 5.1.3-cü yarımbəndin birinci cümləsinə “bölmələrinə” sözündən sonra “və Agentliyə” sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 534 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 540; 2017, № 4, maddə 548; 2018, № 11, maddə 2240) ilə təsdiq edilmiş “Tikinti obyektlərinin sökülməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.6-cı bəndə “başçısının nümayəndəliyinin” sözlərindən sonra “(Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamına verilmiş torpaq sahəsində bu qurumun sərəncamında olduğu müddətdə inşa edilən tikinti obyektlərinə münasibətdə həmin Agentliyin nümayəndəsinin)” sözləri əlavə edilsin;

2.2. 3.9-cu bəndə “başçısının nümayəndəliyinə” sözlərindən sonra “(Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamına verilmiş torpaq sahəsində bu qurumun sərəncamında olduğu müddətdə inşa edilən tikinti obyektlərinə münasibətdə həmin Agentliyə)” sözləri əlavə edilsin;

2.3. 4.2.8-ci yarımbənddə “aidiyyəti yerli icra hakimiyyəti orqanının” sözləri “tikintiyə icazə verən orqanın (qurumun)” sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 4, maddə 527; 2018, № 2, maddə 221, № 8, maddə 1678, № 12 (I kitab), maddə 2594; 2019, № 4, maddə 616) ilə təsdiq edilmiş “Sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.17-ci bəndin birinci cümləsində “müvafiq yerli icra hakimiyyəti orqanına müraciətinə əsasən həmin orqanın” sözləri “tikintiyə icazə verən orqana (quruma) müraciətinə əsasən həmin orqanın (qurumun)” sözləri ilə əvəz edilsin;

3.2. 2.18-ci bənddə “Müvafiq yerli icra hakimiyyəti orqanı” sözləri “Tikintiyə icazə verən orqan (qurum)” sözləri ilə əvəz edilsin;

3.3. 2.19-cu bənddə ismin müvafiq hallarında “müvafiq yerli icra hakimiyyəti orqanı” sözləri ismin müvafiq hallarında “tikintiyə icazə verən orqan (qurum)” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyun 2020-ci il*

# Zərdab rayonunun Ucar-Zərdab-Ağcabədi (32 km)-Gəlmə-Əlibəyli-Allahqulubağı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Dörd min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Ucar-Zərdab-Ağcabədi (32 km)-Gəlmə-Əlibəyli-Allahqulubağı avtomobil yolunun tikintisi məqsədilə “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 3,1 milyon (üç milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyun 2020-ci il*

# “Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası”nın təsdiq edilməsi və “Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 iyul tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkə iqtisadiyyatında qeyri-neft sektoruna investisiya qoyuluşlarının və özəl sektorda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının artırılması ilə əlaqədar sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi, eləcə də Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun maliyyələşdirmə alətlərinin genişləndirilməsi məqsədilə **qərara alıram:**

1. “Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. “Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 iyul tarixli 224 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1510; 2019, № 4, maddə 614, № 6, maddə 1049) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4-cü hissə ləğv edilsin;

2.2. 5.3.1 - 5.3.4-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

“5.3.1. Azərbaycan Respublikasının Mərkəzi Bankı;

5.3.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi;

5.3.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;

5.3.4. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi;”;

2.3. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun Nizamnaməsi” üzrə:

2.3.1. 1.5-ci bənddə “və blankları” sözləri “blankları və loqotipi (emblemi)” sözləri ilə əvəz edilsin;

2.3.2. aşağıdakı məzmunda 2.2.1-1-ci və 2.2.1-2-ci yarımbəndlər əlavə edilsin:

“2.2.1-1. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən hallarda və qaydada sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə zəmanət və faiz subsidiyası vermək;

2.2.1-2. sahibkarlığın inkişafına dəstək sahəsində proqramların (o cümlədən dövlət proqramlarının) hazırlanmasında, həyata keçirilməsində və maliyyələşdirilməsində iştirak etmək;”;

2.3.3. aşağıdakı məzmunda 3.1.1-1-ci yarımbənd əlavə edilsin:

“3.1.1-1. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən hallarda və qaydada sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə zəmanət və faiz subsidiyası vermək;”;

2.3.4. 3.1.2-ci yarımbənd ləğv edilsin;

2.3.5. 3.1.4-cü yarımbənddə “Fondun vəsaiti hesabına maliyyələşdiriləcək” sözləri “Fonda təqdim olunan” sözləri ilə əvəz edilsin;

2.3.6. 3.1.7-ci yarımbənddə “Fondun vəsaiti hesabına güzəştli kreditlərin alınması üçün” sözləri “Fonda təqdim olunan” sözləri ilə əvəz edilsin;

2.3.7. aşağıdakı məzmunda 3.1.9-1-ci yarımbənd əlavə edilsin:

“3.1.9-1. iqtisadiyyatın sahələri üzrə beynəlxalq təcrübəni öyrənmək, müvafiq təhlil və araşdırmalar aparmaq;”;

2.3.8. 3.1.10-cu, 3.1.11-ci və 3.1.12-ci yarımbəndlər ləğv edilsin;

2.3.9. 3.2.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.2.1. Fonda maliyyə ehtiyatlarının cəlb olunması üçün tədbirlər görmək, o cümlədən maliyyə bazarlarından kreditlərin cəlb olunması barədə danışıqlar aparmaq, təkliflər vermək, bu məqsədlə əqdlər bağlamaq və könüllü ianə, yardım, qrant almaq;”;

2.3.10. 4.5.1 - 4.5.4-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

“4.5.1. Azərbaycan Respublikasının Mərkəzi Bankı;

4.5.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi;

4.5.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;

4.5.4. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi.”;

2.3.11. 4.9.7-ci yarımbəndə “daxilolmaların (faiz, cərimə və sair)” sözlərindən sonra “və fəaliyyətindən əldə olunmuş digər gəlirlərin” sözləri əlavə edilsin;

2.3.12. aşağıdakı məzmunda 4.9.7-1 - 4.9.7-4-cü yarımbəndlər əlavə edilsin:

“4.9.7-1. müvəkkil kredit təşkilatının Fond qarşısındakı borc öhdəliyinin restrukturizasiyası (öhdəliyin icrasına möhlət verilməsi) qaydasını müəyyən etmək;

4.9.7-2. müvəkkil kredit təşkilatının lisenziyası ləğv edildikdə və bununla əlaqədar ləğvetmə proseduruna məruz qaldıqda, Fondun vəsaiti hesabına maliyyələşdirilən kredit portfelinin hamısının və ya bir hissəsinin ləğvetməyə məruz qalmış bankdan (və ya bank olmayan kredit təşkilatından) digər müvəkkil banka (və ya bank olmayan kredit təşkilatına) köçürülən güzəştli kreditin restrukturizasiya şərtlərini müəyyən etmək;

4.9.7-3. Fondun müvəkkil kredit təşkilatları vasitəsilə yerləşdirilən aktivlərinin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılması (o cümlədən ümidsiz aktivlərin silinməsi) qaydalarını təsdiq etmək və nizamnamə fondunun dəyişdirilməsi barədə müvafiq təkliflər vermək;

4.9.7-4. Fond qarşısında öhdəlikləri yerinə yetirməyən müvəkkil kredit təşkilatları ilə bağlı həyata keçirilməli daxili prosedurları nəzərdə tutan qaydaları təsdiq etmək;”;

2.3.13. 4.9.8-ci yarımbəndə “habelə” sözündən əvvəl “fəaliyyət istiqamətləri ilə bağlı komitələrin əsasnamələrini,” sözləri əlavə edilsin;

2.3.14. 4.9.15-ci yarımbənddən “Fondun vəsaitlərinin istifadə edilməsinin şərtləri haqqında” sözləri çıxarılsın;

2.3.15. 4.9.16-cı yarımbənddə “Fondun vəsaiti hesabına güzəştli kreditlərin alınması üçün” sözləri “Fonda təqdim olunan” sözləri ilə əvəz edilsin;

2.3.16. 4.9.17-ci yarımbənddən “Fondun vəsaiti hesabına verilmiş” sözləri çıxarılsın;

2.3.17. 4.9.21-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 4.9.22-ci yarımbənd əlavə edilsin:

“4.9.22. Fondun Nizamnaməsi ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.”;

2.3.18. 4.18-ci bənddə “Mülki Məcəlləsində müəyyən edilmiş” sözləri “normativ hüquqi aktlarından irəli gələn” sözləri ilə əvəz edilsin;

2.3.19. 5.5-ci bəndin birinci cümləsində “ayda” sözü “rübdə” sözü ilə əvəz edilsin;

2.3.20. 5.6.14-cü yarımbənddə “bağlı” sözündən sonra “komitələr,” sözü əlavə olunsun;

2.3.21. 7.3-cü bəndin ikinci cümləsinə “daxilolmalar (faiz, cərimə və sair)” sözlərindən sonra “və fəaliyyətindən əldə olunmuş digər gəlirlər” sözləri əlavə edilsin;

2.3.22. aşağıdakı məzmunda 7.3-1-ci bənd əlavə edilsin:

“7.3-1. Fondun milli valyutada pul vəsaiti Azərbaycan Respublikasının Mərkəzi Bankında açılan bank hesablarında saxlanıla bilər.”;

2.3.23. 7.4-cü bənd ləğv edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Fərmanın 2.3.2-ci yarımbəndində nəzərdə tutulan fəaliyyətin təmin edilməsi məqsədilə sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə zəmanət və faiz subsidiyası verilməsi qaydalarını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Fərmanın 2.3.2-ci yarımbəndində nəzərdə tutulan subsidiyanın verilməsində istifadə olunan vəsaiti nəzarətdə saxlasın və subsidiyalaşdırma başa çatdıqdan sonra Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun nizamnamə fondunda dəyişiklik edilməsi barədə təkliflərini 3 (üç) ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

5. Bu Fərmanın 2.2-ci bəndinə və 2.3.12-ci yarımbəndinə müvafiq olaraq aidiyyəti dövlət qurumları 10 (on) gün müddətində Fondun Müşahidə Şurasının üzvlərinin təyin olunmasını təmin etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyun 2020-ci il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# “Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 noyabr tarixli 349 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 noyabr tarixli 349 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1389; 2016, № 11, maddə 1803; 2017, № 4, maddə 546; 2019, № 5, maddə 816) ilə təsdiq edilmiş “Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2-ci bənddə “müvafiq yerli icra hakimiyyəti orqanı” sözləri “orqan (qurum)” sözləri ilə əvəz edilsin;

2. 2.3-cü bənddə “müvafiq yerli icra hakimiyyəti orqanı” sözləri “tikinti barədə məlumatlandırılan orqan (qurum)” sözləri ilə əvəz edilsin;

3. 2.20-ci bəndin ikinci cümləsində “müvafiq yerli icra hakimiyyəti və yerli polis orqanlarına” sözləri “tikintiyə icazə verən orqana (quruma) və yerli polis orqanlarına, Bakı şəhərinin inzibati ərazisində tikinti obyektlərinə, habelə tikintisinə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin icazə verdiyi tikinti obyektlərinə münasibətdə isə həmçinin müvafiq yerli icra hakimiyyəti orqanlarına” sözləri ilə əvəz edilsin;

4. 2.21-ci bəndin ikinci cümləsində “müvafiq yerli icra hakimiyyəti orqanına” sözləri “istismara icazə verən orqana (quruma)” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyun 2020-ci il*

Milli Məclisin iclasında

# Prezident İlham Əliyevin maskadan istifadə etməsi hər birimiz üçün nümunə olmalıdır

## Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində ölkə vətəndaşları dayanır






Fotolar Şamil Talıbovundur

*Əvvəli 1-ci səh.*

"Bununla əlaqədar mən də deputatlardan, parlament Aparatının və İşlər İdarəsinin əməkdaşlarından tələb edirəm ki, karantin rejiminin tələblərinə ciddi riayət etsinlər, müəyyən edilmiş yerlərdə hökmən tibbi maskalardan və digər qoruyucu vasitələrdən istifadə etsinlər, sanitariya-gigiyena qaydalarına əməl etsinlər. Mən düşünürəm ki, iclasımızı işıqlandıran media nümayəndələrinin də bu tövsiyələrə əməl etmələri yaxşı olardı" - deyə Sahibə Qafarova bildirdi.

Spiker öz çıxışında daha sonra dedi ki, iyunun 3-də Prezident İlham Əliyevin Tərtərdə Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak edərkən maskadan istifadə etməsi hər birimiz üçün nümunə olmalıdır: "Hər bir vətəndaş öz şəxsi məsuliyyətini dərk etməli, Operativ Qərargahın tələb və tövsiyələrinə riayət etməlidir. Hər kəs bilməlidir ki, Azərbaycan dövləti virusa qarşı mübarizədə bütün lazımi tədbirləri həyata keçirir. Möhtərəm Prezident İlham Əliyevin Ağcabədidə "ASAN Həyat" kompleksinin açılışında qeyd etdiyi kimi, Azərbaycan koronavirusa qarşı mübarizədə nümunəvi ölkədir. Beynəlxalq ictimaiyyət, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatı da ölkəmizdə atılmış məqsədyönlü, səmərəli və cəsarətli addımlara yüksək qiymət verib. Bu tədbirlər onu göstərir ki, Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində ölkə vətəndaşları dayanır və onların sağlamlığı hər şeydən öndə gəlir".

### "Onları Heydər Əliyev dar ağacından xilas etdi"

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırdı ki, gündəliyə 4 məsələ daxil edilib. Gündəlik təsdiq edildikdən sonra deputatlar cari məsələlərə dair fikirlərini bildirdilər. İlk söz alan deputat Aqil Abbas Şuşanın salınmasının 270 illiyinin qeyd olunması ilə bağlı təkliflərini bildirdi. Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov isə 1993-cü ilin iyununda Gəncə hadisələrinin günahkarlarının və o zaman Surət Hüseynovun əsiri olan şəxslərin indi bəziləri tərəfindən qəhrəman kimi təqdim olunduqlarını bildirdi. Onun sözlərinə görə, o zaman hadisələrin qarşısını ala bilməyənlər indi özlərini demokrat adlandırırlar: "Surət Hüseynov dar ağacları qurmuşdu. Onları Ümummilli Lider Heydər Əliyev dar ağacından xilas etdi. Dövlət katibi olan Əli Kərimli iki il qaçıb Kələkidə gizləndi, Heydər Əliyev demokratik dövlət qurandan sonra hərəsi bir dərədən çıxıb özlərini demokrat adlandırdılar".

Bu mövzuda danışan Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli də son günlər 4 iyun 1993-cü il hadisələri ilə bağlı fərqli fikirlərin və o vaxt hakimiyyətdə olan şəxslərin özlərinə bəraət qazandırmaq cəhdlərinin müşahidə edildiyini, lakin bütün bu cəhdlərin əbəs olduğunu bildirdi. Əli Hüseynlinin sözlərinə görə, ozamankı Ali Sovet bu hadisələrə rəy verib və qərar qəbul edib: "Əminəm ki, gələcək nəsillər də həmin qərardan düzgün nəticə çıxaracaqlar. Məlum hadisələr ozamankı hakimiyyətdə olan 17 nəfərin səhvi üzündən baş verib. Tarixi həqiqət ondan ibarətdir ki, o zaman qiyamı törədənlərlə həmin qiyamın qarşısını almağa çalışan qüvvələr eyni cinayəti törədib. Nəticə isə çox acınacaqlı olub. Ermənilər baş verənlərdən istifadə edib, ölkədə vətəndaş qarşıdurması yaranıb".

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, deputatlardan Naqif Həmzəyev, Vahid Əhmədov, Ceyhun Məmmədov, Bəhruz Məhərrəmov ölkə həyatının müxtəlif sahələrində son vaxtlar baş verən hadisələr barədə fikirlərini açıqladılar, təmsil etdikləri dairələrdə seçicilərlə keçirdikləri görüşlərdən danışdılar. Deputatlar öz çıxışlarında koronavirusla mübarizə sahəsində həyata keçirilən çevik tədbirlərin vətəndaşlar tərəfindən razılıqda qarşılandığını söylədilər.

### 2019-cu il Azərbaycanda sürətli islahatlar ili kimi yadda qalıb

Sonra iclasın gündəliyindəki məsələlərin müzakirəsi başladı. Spiker Sahibə Qafarova Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının üzvlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsi barədə məlumat verdi. Bildirildi ki, komissiyanın Əsasnaməsinə görə onun 5 üzvü Milli Məclis tərəfindən təyin edilməlidir. Qeyd edildi ki, namizədlər səriştəli, cəmiyyətdə nüfuz sahibi olan insanlardır.

Qərar layihəsi səsə qoyularaq qəbul edildi.

"Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi birinci oxunuşda müzakirəyə təqdim olundu. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirdi ki, qanun layihəsi "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətdə və formada Milli Məclisə təqdim edilib. Həm layihə, həm də hesabat tələb olunan məlumatları əhatə edərək qanunla müəyyən olunmuş qaydada tərtib olunub. Qeyd edildi ki, 2019-cu ilin dövlət büdcəsi Prezident İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf prioritetləri və sosial-iqtisadi siyasət istiqamətləri ilə uzlaşdırılaraq qlobal iqtisadiyyatda gedən proseslərin icmal və dövlət büdcələrinin əsas parametrlərinə ehtimal olunan təsirləri nəzərə alınmaqla icra olunub.

Diqqətə çatdırıldı ki, 2019-cu il Azərbaycanda ən sürətli, əhatəli islahatlar ili kimi yadda qalıb. İndiyədək heç bir ildə 2019-cu ildə olduğu kimi, eyni vaxtda bir neçə istiqamətdə, kompleks halda və genişmiqyaslı addımlar atılmayıb. Təsadüfi deyil ki, Dünya Bankı da "Doing Business 2019" hesabatında Azərbaycanı dünyanın ən çox islahat aparan ölkəsi elan edib.

Ötən müddətdə qeyri-neft sənayesinin istehsalının 14 faiz, kənd təsərrüfatı istehsalının 7.3 faiz, əhalinin real gəlirlərinin 4.7 faiz, orta aylıq əməkhaqqının 14 faiz artması islahatların nəticələrinin qısa müddət ərzində iqtisadi subyektlər və əhali tərəfindən hiss edilməsinə səbəb olub. Azərbaycanda 2018-ci ilə nisbətən iqtisadi artım 0.7 faiz sürətlənərək 2019-cu ildə 2.2 faizə çatıb. Qeyri-neft sektoru üzrə iqtisadi artım isə 3.5 faiz təşkil edib. 2019-cu ildəki iqtisadi artım əsasən qeyri-neft sektorunun inkişafı hesabına təmin edilib. Ümumiyyətlə, qeyri-neft sektorunun ÜDM-dəki payı 2018-ci ildəki 58.3 faizdən 2019-cu ildə 61.7 faizə qalxıb. Ölkədə əməkhaqqı fondunun ÜDM-də payının artırılaraq 6.1 faizə çatması təqdirəlayiq haldır.

2019-cu ildə ölkənin strateji valyuta ehtiyatları artaraq 51.4 milyard dollar təşkil edib, bu da ÜDM-in həcmindən çoxdur. 2019-cu ildə tədiyyə balansının cari əməliyyatlar balansında 4.3 milyard manat həcmində profisit qeydə alınıb.

Xarici və daxili investorlar üçün əlverişli biznes mühitinin yaradılması, biznesin vergi yükünün optimallaşdırılması, maliyyə-bank sektoru tərəfindən sahibkarlara kredit dəstəyinin verilməsi 2019-cu ildə də xüsusi əhəmiyyət kəsb edib. Prezident İlham Əliyevin bilavasitə tapşırığı ilə biznes mühitinin yaxşılaşması istiqamətində son illərdə həyata keçirilmiş tədbirlər Dünya Bankının sonuncu "Doing Business", biznes üçün şərait hesabatında yüksək qiymətə layiq görülüb, ölkəmiz 190 ölkə arasında 25-ci yerə yüksəlib.

Qeyd olundu ki, ötən il dövlət və icmal büdcələrinin gəlirləri proqnozla nəzərdə tutulduğundan artıq, xərcləri isə təsdiq edilmiş büdcə ayırmaları həddini aşmadan icra olunub. Belə ki, 2019-cu il üçün icmal büdcənin gəlirləri 34 milyard manat və ya proqnoza nisbətən 4,8 milyard manat çox, xərcləri isə 26,5 milyard manat icra olunub. İcmal büdcədə proqnoza nisbətən 5,6 milyard manat və ya 4 dəfə çox, yəni 7,5 milyard manat büdcə artıqlığı (profisit) yaranıb.

2019-cu ildə dövlət büdcəsinin gəlirləri 24 milyard 218 milyon manat olmaqla proqnoza qarşı 1 milyard 50 milyon manat və ya 4,5 faiz çox icra edilmişdir. Təqdirəlayiq haldır ki, əldə olunan bütün əlavə gəlirlər və dövlət büdcəsində ənənəvi formalaşan ehtiyatlar istisnasız olaraq dövlət başçısı tərəfindən əhalinin sosial müdafiəsinin gücləndirilməsinə yönəldilmişdir.

Ötən il dövlət büdcəsinin xərcləri 97 faiz icra edilməklə 24 milyard 426 milyon manat təşkil etmişdir. Proqnoza nisbətən büdcə xərclərinin az icra olunmasına baxmayaraq heç bir sosial layihənin, prioritet xərclərin və tədbirlərin ixtisar olunmaması təqdirəlayiq hal kimi qiymətləndirilməlidir.

Tahir Mirkişili qeyd etdi ki, 2019-cu il üçün dövlət büdcəsinin icrası Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf kursunun ardıcıl surətdə davam etdirilməsi, əsas dövlət və sosial vəzifələrin həyata keçirilməsi, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə makroiqtisadi sabitliyin qorunması və iqtisadiyyatın stimullaşdırılması istiqamətində öz müsbət rolunu oynayıb.

Maliyyə naziri Samir Şərifov bildirdi ki, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində 2019-cu il üçün dövlət büdcəsinin icrası haqqında qanun layihəsi və müvafiq hesabat ətraflı müzakirə edilib. İclasda faydalı, konstruktiv fikir mübadiləsi aparılıb.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov da öz çıxışında 2019-cu ilin dövlət büdcəsinin icrası ilə bağlı Milli Məclisin komitə iclasında məhsuldar müzakirələrin aparıldığını qeyd etdi. Bildirdi ki, rəhbərlik etdiyi qurumun rəyi Milli Məclisə təqdim olunub.

Müzakirələr zamanı komitə sədrləri Qənirə Paşayeva, Hicran Hüseynova, Siyavuş Novruzov, deputatlardan Aydın Mirzəzadə, Fazil Mustafa, Elşən Musayev, Azər Badamov, Əli Məsimli, Qüdrət Həsənquliyev, Azay Quliyev, Məlahət İbrahimqızı, Tahir Kərimli, Musa Qasımlı, Aydın Hüseynov, Aqiyə Naxçıvanlı, Rauf Əliyev məsələ barədə öz fikirlərini açıqladılar, təkliflərini verdilər.

Maliyyə naziri Samir Şərifov səsləndirilən fikirlərə münasibət bildirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edildi.

### Məhkəmə-hüquq islahatlarından irəli gələn dəyişikliklər

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) müzakirəyə təqdim etdi. Dəyişiklik ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması sahəsində görülən tədbirlər çərçivəsində məhkəmələrin fəaliyyətinin monitorinq sisteminin təkmilləşdirilməsi məqsədini daşıyır.

Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, komitə sədrləri Hicran Hüseynova, Siyavuş Novruzov, Ziyafət Əsgərov, deputatlar Qüdrət Həsənquliyev, Jalə Əliyeva bu məsələyə münasibət bildirdilər. Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Gündəliyin sonuncu məsələsi - "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi barədə (birinci oxunuş) də Əminə Ağazadə məlumat verdi. Qeyd olundu ki, məcəlləyə təklif olunan dəyişikliklər bir neçə istiqamət üzrə hazırlanıb. Birinci istiqamət Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli fərmanı ilə verilmiş tapşırıqların icrası ilə bağlıdır. Belə ki, ədalət mühakiməsinin əlçatanlığını və şəffaflığını daha da artırmaq məqsədilə məcəlləyə bir sıra dəyişikliklər təklif olunur. Bu dəyişikliklər "Elektron məhkəmə" informasiya sisteminin tətbiqini, müasir informasiya-kommunikasiya texnologiyalarının üstünlüklərindən istifadə edilməklə xüsusi hallarda cinayət prosesinin videokonfrans vasitəsilə davam etdirilməsini təmin edən yeni maddələrin əlavə edilməsini, məhkəmə icraatının obyektivliyini daha dolğun şəkildə təmin etmək üçün bütün məhkəmə iclaslarının fasiləsiz audioyazısının aparılmasını və protokolun məhkəmə iclasının audioyazısına uyğun tərtibini nəzərdə tutur.

Növbəti istiqamət cinayət mühakimə icraatında kassasiya şikayəti icraatının təkmilləşdirilməsindən ibarətdir. Digər istiqamət isə xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması üzrə icraatın prosessual qaydaları ilə bağlıdır. Bununla əlaqədar olaraq Cinayət-Prosessual Məcəlləsinə həmin qaydaları ehtiva edən yeni 59-cu fəslin əlavə edilməsi təklif olunur. Qanun layihəsinin 2020-ci il iyul ayının 1-dən qüvvəyə minməsi nəzərdə tutulub.

Müzakirələr zamanı çıxış edənlər təklif olunan dəyişiklikləri məqsədəmüvafiq hesab etdilər. Yekunda qanun layihəsi birinci oxunuşda qəbul edildi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

---

## Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının üzvlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

"Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinə əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununu rəhbər tutaraq və "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında" Əsasnamənin 3-cü maddəsini nəzərə alaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Aşağıdakı şəxslər Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının üzvləri təyin edilsinlər:

**Əliyev Adil Abış oğlu** - Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri,
**Ağazadə Əminə Həmid qızı** - Azərbaycan Respublikası Milli Məclisinin deputatı,
**Mirbəşir oğlu Elşad** - Azərbaycan Respublikası Milli Məclisinin deputatı,
**Nağıyev Arzu Nəsib oğlu** - Azərbaycan Respublikası Milli Məclisinin deputatı,
**Mirzəyev Səfa Abbas oğlu** - Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri.

***S.QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 5 iyun 2020-ci il*

---

# "Sizin xalqımızın birliyini, sağlamlığını və rifahının yüksəlməsini təmin edən siyasətinizi dəstəkləyirik"

Koronavirus pandemiyasının bütün dünyada tüğyan etdiyi bir vaxtda Azərbaycan əhalisinin sağlamlığının qorunması, rifahının yaxşılaşdırılması üçün Prezident İlham Əliyevin atdığı qətiyyətli addımlar vətəndaşlarımız tərəfindən böyük rəğbətlə qarşılanır. Azərbaycan vətəndaşları dövlət başçısının göstərdiyi diqqət və qayğıdan razılıqlarını ona yazdıqları minnətdarlıq məktublarında ifadə edirlər.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

Cəlilabad rayonunun sakinləri **Firon Qasımov, Bəhruz Hüseynov** və **Qabil Mustafayev** yazırlar: "Möhtərəm cənab Prezident, kəndlilərin çörəyi torpaqdan çıxır. Bu torpağı da bizə Ulu Öndərimiz Heydər Əliyev bağışlayıb. O vaxtdan bəri torpaqlarımızı əkib-becərir və müxtəlif növ kənd təsərrüfatı məhsulları istehsal edirik. Lakin təsərrüfatımızda əsas yeri kartof tutur. Biz məhsulumuzu Rusiyaya ixrac edərək ölkəmizə çoxlu vəsait cəlb edirik. Cənab Prezident, hər il olduğu kimi, bu il də Siz bu məsələdə bizə yaxından kömək etdiniz. Rusiyadan gələn maşınların ölkəmizə maneəsiz daxil olmasını təmin edərək məhsulumuzun xarici bazarlarda satılmasına şərait yaratdınız. Bu məsələdə heç bir problemimiz olmadı. Göstərdiyiniz diqqət və qayğıya görə Sizə minnətdarıq, cənab Prezident! Allah Sizi qorusun! Sağ olun".

Gədəbəy rayonunun Arıqıran kəndindən şəhid anası **Səyyarə Musayeva:** "Möhtərəm cənab Prezident, bütün dünyada böhranın baş alıb getdiyi bir vaxtda ölkəmizdə, o cümlədən Gədəbəyimizdə aparılan abadlıq-quruculuq işlərinə görə bir şəhid anası kimi Sizə təşəkkür edirəm. Arıqıran kəndinə təbii qaz xəttinin çəkilişinə və işıq dirəklərinin yenilənməsinə başlanılıb. Uzun müddət idi ki, elektrik enerjisi və yanacaq sarıdan əziyyət çəkirdik. Sakinlərə göstərdiyiniz bu diqqət və qayğıya görə bir daha Sizə təşəkkürümü bildirirəm. Tanrı Sizi və Azərbaycanımızı qorusun!"

Ağcabədi rayonundan **Ülviyyə Cəbrayılova:** "Möhtərəm cənab Prezident, dünyanı çənginə alan koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması istiqamətində atdığınız zəruri qabaqlayıcı addımlar bir daha onu sübut etdi ki, Siz hər zaman xalqın yanında olmusunuz. Karantin rejiminin tətbiqi və yüksək standartlara uyğun modul tipli xəstəxanaların açılışı koronavirusla mübarizədə görülən tədbirlərin ən bariz nümunələridir. Biz əminik ki, Sizin tövsiyələrinizlə bu virusdan tez bir zamanda xilas olacağıq. Bizə göstərdiyiniz bu qayğı və diqqətə görə Sizə şəxsən öz adımdan və ailəmin adından təşəkkür edirəm. Hər zaman yanımızda olduğunuz kimi, biz də daim Sizinləyik".

Binəqədi rayonunun Biləcəri qəsəbəsindən **Əlipaşa Əliyev:** "Hörmətli cənab Prezident, hər şeydən əvvəl şəxsən öz adımdan, bütün yaxınlarımın və Azərbaycan xalqının adından Sizə təşəkkür edirəm. Siz dünyanı çənginə almış koronavirus pandemiyası dövründə Azərbaycan xalqının sağlamlığını hər şeydən üstün tutaraq onu böyük bir fəlakətdən qorumaqdasınız. İllər keçəcək, amma Sizin bu əvəzsiz xidmətləriniz heç vaxt unudulmayacaq, yaddaşlardan silinməyəcək. Ümummilli Liderimiz Heydər Əliyev 1993-cü ilin iyununda xalqın çağırışı və təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdı, Azərbaycanı anarxiyadan, uçurumdan, AXC-Müsavat cütlüyünün qaragüruhundan xilas etdi. Qısa müddət ərzində Odlar Yurdunda tərəqqi, inkişaf başlandı. Bu gün Azərbaycan dünyanın inkişaf etmiş ölkələrindən biridir. Vaxtilə köməyə ehtiyacı olan Azərbaycan indi özü başqa dövlətlərə kömək edir, yardım göndərir. Bütün bunlar əlbəttə ki, böyük dəyərdir, ölkəmizin gücünün göstəricisidir. Hörmətli cənab Prezident, xalqımızın sağlamlığı və xoşbəxtliyi üçün göstərdiyiniz xidmətlərə görə bir daha Sizə dərin təşəkkürümü bildirir, Sizə və ailənizə, əzizlərinizə xoşbəxtlik, cansağlığı, yeni-yeni uğurlar arzulayıram.

Göyçay rayonunun sakinləri **Akif Sərkərov, Əsgər Əkbərov, Tahir Əliyev** və **İlham Mustafayev** yazırlar: "Hörmətli cənab Prezident, bütün dünyanı bürüyən koronavirus (COVID-19) pandemiyası ölkəmizdən də yan keçmədi. Sizin rəhbərliyinizlə vaxtında həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində xalqımız bu bəlaya ilkin mərhələdə minimum itkilərlə qalib gəlməyə nail oldu. Karantin rejimi dövründə vətəndaşların sosial və digər yardımlarla təmin edilməsi üçün Sizin və Mehriban xanımın gördüyü işləri hər bir azərbaycanlı kimi, biz göyçaylılar da çox bəyənir və təqdir edirik. İş yerləri müvəqqəti bağlanmış fiziki və hüquqi şəxslərə kompensasiyaların, işsizlərə 190 manat birdəfəlik ödəmənin və ehtiyacı olan insanlara Heydər Əliyev Fondu tərəfindən ərzaq yardımlarının verilməsi Sizin və Mehriban xanımın qayğıkeşliyinizin bariz nümunələridir. Hörmətli cənab Prezident, yaşadığımız məhəllə Göyçay çayının sağ sahilində yerləşir. Sizin sərəncamınıza əsasən Göyçay çayında aparılan məcradəyişmə, sahilbərkitmə işlərindən və yeni körpünün tikilməsindən sonra yaşadığımız ərazidə avtomobillərin hərəkəti intensivləşib. Avtomobil yolunda asfalt örtüyü olmadığı üçün yaranan toz kütləsi burada yaşayan insanlara ciddi narahatlıq yaradırdı. Bu məsələ ilə bağlı müraciətimizdən dərhal sonra qeyd olunan əraziyə 500 metr məsafədə asfalt örtüyü salınıb. Cənab Prezident, görülən və görüləcək işlərə görə sakinlər adından Sizə və Mehriban xanım Əliyevaya öz dərin təşəkkürümüzü bildiririk.

Zərdab rayonunun Şəftəhal kəndindən **Cahan Xəlilova:** "Möhtərəm Prezident, mənim 11 övladım, 25 nəvəm, 20 nəticəm, 2 kötücəm var. Həyat yoldaşım Böyük Vətən müharibəsinin iştirakçısı olub, 2004-cü ildə vəfat edib. Ailə vəziyyətimiz çox ağır olub. Ancaq buna baxmayaraq, həmişə xoşbəxt günlərimin qabaqda olacağı ümidi ilə yaşamışam. Bəli, bu gün mən özümü dünyanın ən xoşbəxt analarından biri hesab edirəm. Övladlarım, nəvələrim və nəticələrim dövlət müəssisələrində müəllim, hərbçi, həkim, mühəndis və neftçi işləyirlər. Onlarla fəxr edirəm. Bir qəhrəman ana olaraq, bütün bunlara görə bu günlərdə anadan olmasının 97-ci ildönümünü qeyd etdiyimiz Ümummilli Liderimiz Heydər Əliyevə, sabitliyin, əmin-amanlığın qorunmasında, əhalinin sosial rifah halının yaxşılaşdırılmasında həyata keçirdiyiniz və pandemiya ilə əlaqədar görülmüş qabaqlayıcı tədbirlərə görə Sizə minnətdaram.

Siz bir daha sübut etdiniz ki, əhalinin sağlamlığı hər şeydən üstündür. Koronavirusun iqtisadiyyatımıza vurduğu ziyana baxmayaraq, imkansız və aztəminatlı ailələrə edilən yardımlar, verilən sosial müavinətlər, Böyük Vətən müharibəsi iştirakçılarına və onların ailə üzvlərinə qələbənin ildönümü ilə əlaqədar birdəfəlik müavinətlərin verilməsi göstərir ki, bu çətin vəziyyətdə də ölkəmizdə heç bir sosial layihə təxirə salınmayacaq. Əziz Prezidentimiz, müasir müstəqil Azərbaycanın memarı Ulu Öndər Heydər Əliyev, Azərbaycanı sürətlə inkişaf etdirib qabaqcıl ölkəyə çevirən isə Sizsiniz. Ən böyük arzularımdan biri odur ki, işğal altında olan torpaqlarımız Sizin rəhbərliyinizlə azad edilsin. Əminəm ki, bu işin öhdəsindən də tezliklə gələcəksiniz. Allah Sizi qorusun!"

Mingəçevir şəhərindən **Elnarə Abışova:** "Hörmətli cənab Prezident, mən Rusiya vətəndaşıyam, 25 yaşım var. Rusiyada doğulmuşam, orada böyümüşəm və İqtisad Universitetini bitirmişəm. Virusla əlaqədar sahibkarlara kompensasiyanın verilməsinə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Kompensasiyaya görə çox sağ olun. Bu il ölkəmizə qənim kəsilmiş virus bizə çox ziyan vurub, lakin insanların həyatından əhəmiyyətli heç nə yoxdur. Siz vaxtında karantin elan etməklə onların həyatını xilas etdiniz.

Dörd il bundan əvvəl mən Mingəçevir şəhərində turizm agentliyi açmışam. Arzum budur ki, Mingəçevir gələcəkdə turizm şəhəri olsun".

Bakının Yasamal rayonundan **Gözəl Musayeva:** "Azərbaycan xalqının əziz və hörmətli oğlu, mənim 62 yaşım var, birinci qrup əliləm. Sizin kimi Prezidentim olduğu üçün fəxr edirəm. Çünki Siz xalqın qayğısına qalırsınız, vətəndaşlara diqqət göstərirsiniz. Dünyanı lərzəyə salan koronavirusun ölkəmizdə geniş yayılmasının qarşısını aldınız, böyük fədakarlıq göstərərək xalqımızı ağır vəziyyətdən çıxardınız. Buna görə xalq Sizi alqışlayır. Sizin aztəminatlı insanlara, xəstələrə, imkansızlara kömək göstərilməsi barədə çağırışınız və bu istiqamətdə əməli işləriniz çoxlarına örnək oldu. Bir çoxları Sizdən nümunə götürərək ehtiyac içində olan insanlara kömək göstərməyə başladılar, xeyriyyəçilik etdilər. Bu amil bizi birliyə səsləyir, xalqımızın daha güclü, dövlətimizin daha qüdrətli olmasına zəmin yaradır. Hər kəs bir-birinə əl uzatsa, bir-birinin əlindən tutsa, sözsüz ki, dövlətimiz daha da güclənər.

Hörmətli Prezident, Siz Azərbaycanı bütün dünyada tanıtmısınız. Azərbaycan xalqı Sizi sevir, Sizə inanır və güvənir. Bütün işlərinizdə Allah Sizə kömək olsun!"

Yasamal rayonundan akademik **Nazim Məmmədov,** professor **İmaməddin Əmiraslanov,** dosentlər **Nadir Abdullayev** və **Ziya Əliyev** yazırlar: "Möhtərəm cənab Prezident, əməyimizə verdiyiniz yüksək qiymətə - bizi 2020-ci il Elm üzrə Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı adına layiq gördüyünüzə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Ümummilli Liderimiz Heydər Əliyevin uzaqgörənliyi və böyük dəstəyi, Sizin düşünülmüş siyasətiniz, elmə, elm adamlarına diqqət və qayğınız sayəsində Azərbaycan elmi 1990-cı illərin böhranını uğurla dəf edərək yeni inkişaf yoluna qədəm qoymuşdur. Bu siyasətin nəticəsidir ki, artıq bir sıra sahələrdə, o cümlədən kondensə olunmuş hal fizikası sahəsində elmimiz öz nəticələri ilə dünyada tanınır və qəbul edilir, postsovet məkanında, xüsusilə regionda inamla liderliyə yüksəlir. Layiq görüldüyümüz dövlət mükafatı bizi daha əzmlə çalışmağa, elmimizin inkişafına yeni töhfələr verməyə ruhlandırır. Sizin respublikamızda iqtisadi-siyasi sabitliyi, milli-mənəvi birliyi, xalqımızın sağlamlığı və rifahının daim yüksəlməsini təmin edən siyasətinizi dəstəkləyirik. Bütün dünyanı bürümüş koronavirus pandemiyasına qarşı Sizin və Mehriban xanımın həyata keçirdiyiniz tədbirlər bir daha hər bir vətəndaşın yanında olduğunuzu göstərir. Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, respublikamızın və xalqımızın xoşbəxtliyinə yönəlmiş fəaliyyətinizdə böyük uğurlar arzulayırıq".

Bakının Xəzər rayonundan **Fatimə Həsənova:** "Möhtərəm cənab Prezident, bu gün dünya dəhşətli pandemiya ilə mübarizə aparır. Dünyada hər gün minlərlə insan həlak olur. Lakin Sizin uzaqgörən siyasətiniz nəticəsində ölkəmiz pandemiya ilə mübarizədən alnıaçıq çıxmaqdadır. Yüksək təhlükəsizlik tədbirləri, xüsusi karantin rejiminin tətbiqi və vaxtında verdiyiniz digər bu kimi qərarlar təqdirəlayiqdir. Bu çətin dönəmdə aztəminatlı ailələri də unutmadınız, ərzaq yardımları və maddi yardımlarla bizi sevindirdiniz. Aprel və may aylarında aldığım 190 manat birdəfəlik müavinət bir işsiz vətəndaş kimi mənə çox kömək oldu. Cənab Prezident, Siz xalqımıza həm maddi, həm də mənəvi dəstək oldunuz. Allah Sizi və ailənizi qorusun, əziz Prezidentimiz! Sizinlə fəxr edirik".

# Regional inkişafın yeni dalğası

## İlham Əliyevin Qarabağ səfərində 9 yeni sosial obyektin açılışı Prezidentin cəbhə bölgəsində yaşayan əhaliyə xüsusi diqqətinin göstəricisidir





Əvvəli 1-ci səh.

Bildirdi ki, Avropa Şurası Parlament Assambleyasının əsas hədəflərindən biri Azərbaycanı ləkələmək, gözdən salmaq, ölkəmiz haqqında uydurmalar yaymaq, saxta məruzələr qəbul etdirmək, Azərbaycanda "beşinci kolon"u, satqınları və münaqişə ilə bağlı Ermənistan tərəfini dəstəkləməkdir. Ona görə Avropa Şurası "Dağlıq Qarabağ respublikası"nda qondarma prezident seçkiləri ilə bağlı səsini belə çıxarmadı: "Bu halda hansı obyektivlikdən, hansı ədalətdən söhbət gedə bilər!

Mən deyəndə ki, Avropa Şurası tərəfindən Azərbaycan ilə əlaqədar qəbul edilmiş sənədlər mənim üçün bir kağız parçasından artıq deyil, bunu nəzərdə tuturdum. Bütün Azərbaycan ictimaiyyəti görüb ki, Avropa Şurası anti-Azərbaycan mövqedədir və bu təşkilatda anti-Azərbaycan meyilləri, azərbaycanafobiya hökm sürür və bizə ünvanlanmış bütün ittihamların təməlində məhz azərbaycanafobiyadır. Biz bütün bu ittihamları artıqlaması ilə onların özlərinə qaytarırıq".



### Qarabağ xalçaçılıq məktəbi daha da inkişaf edəcək

Qarabağa səfəri zamanı Prezident Olimpiya İdman Kompleksinin və "ASAN Həyat" kompleksinin açılışında son illərdə regionların inkişafı ilə bağlı həyata keçirilən infrastruktur layihələri barədə geniş məlumat verdi və qeyd etdi ki, dördüncü dövlət proqramının icrası zamanı daha möhtəşəm uğurlara imza atılacaq.

Azərbaycanda sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, icra olunan dövlət proqramları ölkəmizin sosial-iqtisadi inkişafının dinamikliyini göstərən amillərdəndir. Bu gün ölkədə sahibkarlar dövlət tərəfindən həm mənəvi, həm siyasi, həm də iqtisadi dəstək alırlar. Bölgələrdə yeni zavod, fabrik və digər istehsal müəssisələrinin fəaliyyətə başlaması işsizlik problemini aradan qaldırmaqla yanaşı, regionların malik olduğu potensialdan səmərəli istifadə mexanizmlərini də üzə çıxarır.

İyunun 3-də "Azərxalça" ASC-nin Tərtər filialının, Ağcabədi rayonunda dənli bitki toxumlarının emalı zavodunun açılışı da onu deməyə əsas verir ki, hər iki müəssisədə yüzlərlə insan fəaliyyət göstərəcək. Bu da hər iki rayonda işsizlik probleminin aradan qaldırılması prosesinə töhfə vermiş olacaq. "Azərxalça" Tərtər filialının açılışı isə tezliklə rayonda Qarabağ xalçaçılıq məktəbinin daha da inkişaf edəcəyini bir daha təsdiqləyir. Yəni tezliklə Qarabağ xalçaları yenidən şan-şöhrətini qaytaracaq.

Onu da vurğulayaq ki, Prezident Qarabağa səfəri çərçivəsində bir sıra mühüm obyektlərin açılışlarını edib. Tərtərdə 110/35/6 kilovoltluq "Tərtər" elektrik yarımstansiyasının, Tərtər Dövlət Rəmzləri Muzeyinin, Olimpiya İdman Kompleksinin, Buruc-Gülabatlı-Xoruzlu-Kəbirli-Bayandurlu-Qaradağlı avtomobil yolunun, Ağcabədi şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin, 10/35/10 kilovoltluq "Ağcabədi-2" elektrik yarımstansiyasının yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində iştirak edib.

Bundan başqa, Silahlı Qüvvələrin Ali Baş Komandanı "N" saylı hərbi hissəyə baş çəkib, yaradılan şəraitlə tanış olub, həmçinin Ağcabədinin Hindarx qəsəbəsində fermer Nizami Hüseynovun əkin sahəsində taxıl biçininə başlanması mərasiminə qatılıb.

Ümumilikdə Prezident Qarabağa səfəri zamanı 9 yeni sosial-iqtisadi obyektin açılışını edib.

Regionlarda yenilənən yol infrastrukturu, qazlaşdırma, kanalizasiya sistemlərinin yenidənqurulma prosesi, subartezian quyularının qazılması ilə bağlı fikirlərini bölüşən dövlət başçısı qeyd edib ki, ölkədə quruculuq, abadlıq işləri aparılır, hər bir şəhərdə sosial obyektlər, belə olimpiya mərkəzləri, xəstəxanalar, məktəblər tikilir, yollar çəkilir, qazlaşdırma aparılır.

Bütün bunlar təsdiqləyir ki, regionların uğurlu inkişafı hər zaman cənab İlham Əliyevin siyasətinin prioriteti olub.

### Konkret iş, vaxtında atılmış cəsarətli addımlar, real inkişaf

Göründüyü kimi, Azərbaycan Prezidenti pandemiya ilə mübarizə dövründə də regionların sosial-iqtisadi inkişafını diqqətdə saxlayır və hər bir layihənin icrası ilə şəxsən maraqlanır. Rayonlardan qayıtdıqdan sonra isə mövcud problemlərin aradan qaldırılması istiqamətində fərman və sərəncam imzalayaraq Ehtiyat Fondundan vəsait ayırır.

Bu gün iqtisadi inkişaf, ciddi islahatlar yolunda olan Azərbaycan yeni-yeni uğurlar əldə edir. İqtisadi, sosial infrastruktur layihələri, müasir obyektlər, beynəlxalq layihələrin reallaşması Azərbaycana iqtisadi və siyasi dividendlər qazandırır.

Dövlət başçısının "ASAN Həyat" kompleksinin açılışında söylədiyi kimi bütün bunlar bir daha onu göstərir ki, Azərbaycan güclü dövlətdir. Həyata keçirilən tədbirlər məqsədyönlü, səmərəli, vaxtında atılmış cəsarətli addımlardır.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin təməlində konkret iş, real inkişaf, əməl dayanır. Ona görə də əminliklə deyə bilərik ki, bu il də regionların sosial-iqtisadi inkişafı istiqamətində həyata keçiriləcək infrastruktur layihələri vaxtında və uğurla reallaşacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# "Ermənistanın nə hüquqdan, nə demokratiyadan danışmağa, nə də başqalarına məruzə oxumağa mənəvi haqqı var"

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in dünən Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycan tərəfindən səsləndirilən antierməni bəyanatları barədə şərh verərək, bunun Ermənistan və bölgə üçün təhlükəli olduğunu iddia etməsi ilə bağlı sualını cavablandırıb.

AZƏRTAC xəbər verir ki, Leyla Abdullayeva Ermənistan rəhbərliyinin son zamanlar səsləndirdiyi bəyanatların və nümayiş etdirdiyi davranışların xüsusi şərhə ehtiyac duyduğunu bildirərək deyib: "Təcavüzkar ölkənin rəhbərliyinin Ermənistanın başlatdığı müharibənin nəticələrini aradan qaldırmaq yerinə, onun nəticələrinin, yəni Azərbaycanın beynəlxalq tanınmış ərazilərinin işğalının möhkəmləndirilməsi və yüz minlərlə məcburi köçkünün hüquqlarının pozulmasının davam etdirilməsinə yönələn cəhdləri bu ölkənin başında duranların öz məsuliyyətini tam dərk etməməsi ilə yanaşı, elə öz ölkəsinin və əhalisinin gələcəyinə biganə qaldığını göstərir.

Minlərlə dinc insanın axıdılan qanı, məhv edilmiş həyatı, yüz minlərlə insanın pozulmuş haqları, eləcə də beynəlxalq öhdəliklərin kobudcasına tapdalanmasına görə cavabdeh olan, beynəlxalq ictimaiyyətin Azərbaycan ərazilərinin işğalını pisləyən birmənalı mövqeyi, o cümlədən Avropa İnsan Hüquqları Məhkəməsinin müvafiq qərarları ilə məsuliyyəti təsbit olunan Ermənistanın nə hüquqdan, nə qanundan, nə də demokratiyadan danışmağa, üstəlik digərlərinə məruzə oxumağa heç bir mənəvi haqqı yoxdur.

Təcrübə göstərir ki, Ermənistan tərəfi arqumentlərinin tükəndiyi və deməyə söz tapmadığı bir vaxtda Azərbaycandakı antierməni hissiyyatı mövzusunu gündəmə gətirməyə çalışır. Lakin bölgədəki iki xalq arasındakı bu nifaqın kökündə elə Ermənistanın əsassız ərazi iddiaları və təcavüzkar siyasəti dayandığını görməzdən gələn işğalçı ölkənin rəhbərliyi bu düşmənçiliyin və münaqişənin nəticələrinin aradan qaldırılması üçün də heç bir addım atmır, reallıqdan, praqmatizmdən və konstruktivlikdən uzaq kor siyasət yürüdür. Bu siyasətin nəticəsində isə, ilk növbədə, Ermənistan ağır fəsadlarla üzləşə bilər.

Əgər Ermənistan rəhbərliyi, rəsmi İrəvanın açıqlamalarında səsləndirildiyi kimi, bölgədə sülh və təhlükəsizliyi düşünürsə, o zaman işğalçı qüvvələrini Azərbaycanın ərazilərindən çıxarmalı və əhalisini sülhə hazırlamalıdır. Siyasi iradəsini isə danışıqlar masası arxasında əldə olunan konkret nəticələrlə nümayiş etdirməlidir. Çünki nə Azərbaycanın, nə də beynəlxalq vasitəçilərin səbri tükənməz deyil".

# Qazax və Ağstafa rayonları ərazisində Ermənistanın yeni döyüş mövqeyi əldə etməsi barədə məlumat həqiqətə tam ziddir

Ermənistan Müdafiə Nazirliyinin rəsmi mətbuat orqanı olan "hayzinvor.am" saytında iyunun 4-də yerləşdirilmiş materialda Ermənistan silahlı qüvvələrinin işğalçı ölkənin şimal-şərqində Azərbaycan Respublikası ilə dövlət sərhədində yeni döyüş mövqeyinin yaradılması qeyd edilib.

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən AZƏRTAC-a daxil olan bununla bağlı məlumatda bildirilir ki, Qazax və Ağstafa rayonları ərazisində Azərbaycan-Ermənistan dövlət sərhədindən keçən təmas xəttində, Azərbaycan və Ermənistan döyüş mövqeləri arasında Ermənistan tərəfinin öz mövqelərini irəli çəkməklə hər hansı yeni döyüş mövqeyi əldə etməsi barədə məlumat həqiqətə tam ziddir.

Əksinə, Dövlət Sərhəd Xidmətinin sərhəd-döyüş mövqelərinin irəli çəkilməsi nəticəsində düşmənin bir sıra istiqamətlərdə müxtəlif diversiya və təxribatlar törətmək imkanları ciddi məhdudlaşdırılıb.

# Rusiya Ermənistana güzəştə getmir

## Paşinyanın xarici siyasəti işğalçı ölkəni fiaskoya uğradıb

Əvvəli 1-ci səh.

Lakin indiki halda Gürcüstanla olan durum göstərir ki, Ermənistanın xarici siyasətini Rusiya qəbul etmir. Belə ki, Gürcüstan "Qazprom"la qazın qiymətinin azaldılması ilə bağlı razılaşmaya yenidən baxır. Gürcüstanın yeni təyin olunmuş İqtisadiyyat və Davamlı İnkişaf naziri Natia Turnava məsələ ilə bağlı bildirib: "Güclü rəqabət fonunda dünya neft bazarında qiymətlərin düşdüyünü nəzərə alsaq, "Qazprom"la qüvvədə olan razılaşmaya yenidən baxılması qazın qiymətini azaltmağa kömək edəcək. Ticarət sirrinə əsasən rəqəm deyə bilmərəm, amma təbii qazın qiymətinin təxminən 15 faiz ucuzlaşacağını deyə bilərəm".

Ermənistanın "168.am" internet nəşri yazır ki, bununla faktiki olaraq Ermənistanın arxa planda qaldığı nümayiş olunur. Eyni zamanda baş verənlər göstərir ki, Tiflis Rusiya ilə gərgin münasibətlər fonunda qazın qiymətində güzəştlər əldə etdiyi halda özünü strateji müttəfiq kimi təqdim edən Ermənistan bu məsələdə aciz qalıb.

Ermənistanın Enerji Təhlükəsizliyi İnstitutunun sədri Vahe Davtyan isə qeyd edir ki, Rusiya tərəfindən belə bir qərar özündə erməni tərəfinə bir mesaj əks etdirir: "Bu həm də Yerevana göndərilən bir mesaj kimi qəbul edilə bilər. Ermənistan üçün bir tərəfdən sərhəddə qazın qiymətinin aşağı salınması məsələsinə baxılmır, digər tərəfdən daxili tariflərin artırılması üçün müraciət edilib. Rusiya-Gürcüstan qaz müqaviləsi ilə bağlı və müəyyən edilən qiymət ticarət sirri olsa da, tendensiyanın özü əhəmiyyətlidir və dərin siyasi məzmuna malikdir.

Son zamanlar Rusiya-Gürcüstan münasibətlərinin daha konstruktiv bir sahəyə keçdiyi nəzərə çarpır, belə bir vəziyyət barədə dalana dirənən Ermənistan-Rusiya münasibətləri haqqında danışmaq olmaz. Bu kontekstdə qaz tarifi məsələsi ikitərəfli münasibətlərin əsas indikatoru kimi nəzərdən keçirilə bilər".

Gürcüstan məsələləri üzrə ekspert Coni Melikyan isə nəşrə verdiyi müsahibəsində bildirib ki, bu, Ermənistan tərəfi ilə problemlər fonunda gözlənilən idi: "Gürcüstan və "Qazprom" 2006-cı ildən bəri ildə bir dəfə, 2017-ci ildən bəri isə hər iki ildənbir tranzit olaraq Gürcüstan vasitəsilə Ermənistana qaz ötürülməsinə dair razılaşma imzalayır. 2016-cı ildə başa çatan razılığa qədər Gürcüstan tərəfi Ermənistana tranzit üçün "Qazprom"dan tranzit həcminin 10 faiz həcmi qədər təbii qaz alırdı. 2017-2018-ci illərdə bağlanan razılaşmaya əsasən isə Rusiya tərəfinin tələbi ilə Gürcüstan tranzit üçün qismən qaz və maliyyə kompensasiyası alırdı, yəni müəyyən bir həcmdə pul müəyyənləşdirildi. Gürcüstanın "Qazprom"la son müqaviləsi 2019-cu ilin martında 2019-2020-ci illər üçün imzalanıb. İndi maraqlı olan odur ki, 2017-ci ilə qədər Gürcüstan demək olar ki, Rusiya qazı almırdı və son iki ildə məhdud miqdarda, o cümlədən 2019-cu ildə - təxminən 160 milyon kubmetr qaz alıb, bu da idxal olunan qazın 5 faiz həcmini təşkil edir. Cari ildə isə 170 milyon kubmetr qazın idxalı planlaşdırılır. Burada istehlak üsulu maraqlıdır. Onlar qaz alırlar və artıq birjada iri şirkətlər bu qaz ehtiyatlarını rəqabətli qiymətə alma imkanı əldə edirlər. Tranzit üçün müəyyən bir miqdarda vəsait var və razılaşmanın ikinci elementi odur ki, Gürcüstan tərəfi kompensasiya edilən qazın əlavə həcmi üçün müraciət edə bilər".

Ekspert istənilən halda Ermənistanla müqayisədə Gürcüstanın uduşlu bir mövqedə olduğunu, baş verənlərin Ermənistan hakimiyyətinin yarıtmaz siyasətinin nəticəsi olduğunu bildirir. Keçmiş gürcü diplomat, siyasi analitik İrakli Menaqarişvili də bildirib ki, Rusiya Gürcüstan üçün qazın qiymətini azaltmaqla sırf maraq kəsb edən qərar qəbul edib və bu qərarda siyasi elementlər də var. Menaqarişvilinin sözlərinə görə, Ermənistan halında vəziyyət fərqlidir: "Rusiya bilir ki, əsas tədarükçüdür, Ermənistanın enerji alternativi yoxdur və rus qazından imtina edə bilməz, qiymət Ermənistanı qane etməsə də, "Qazprom" bu bazarı ələ keçirib, siyasi problemlər buna əlavə olunur və başqa qiymətin razılaşdırılmasının alınmadığı məlum olur".

Belə vəziyyətdə Ermənistanda Paşinyan hakimiyyəti daha çox tənqid hədəfinə çevrilir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Gəmilər səfərə çıxır

## Hər gün dəniz nəqliyyatı ilə minlərlə ton yük daşınır

Əvvəli 1-ci səh.

Beləliklə, o, Azərbaycanın beynəlxalq yükdaşımalarda mövqeyinin möhkəmlənməsində mühüm rol oynayacaq.

Xatırladaq ki, ASCO-nun Xəzərdənkənar beynəlxalq sularda fəaliyyəti uzun fasilədən sonra Prezident İlham Əliyevin tapşırığı ilə 2014-cü ildə "Üzeyir Hacıbəyli" və "Natəvan" gəmilərinin alınması ilə bərpa olunub. "Laçın" gəmisinin istismarına başlanması ilə Xəzərdən kənarda üzən gəmilərimizin sayı 15-ə çatıb. Onlardan 12-si quru yük gəmisi, 3-ü tankerdir.

ASCO-nun Nəqliyyat Donanmasına məxsus "Dədə Qorqud" tankeri də təmirdən sonra istismara qaytarılıb. "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda aparılan təmir çərçivəsində tankerin sualtı və suüstü hissələri, əsas göyərtəsi tam təmizlənərək rənglənib. Baş və köməkçi mühərriklər təmir olunub. Bundan başqa, gəmidə boru, elektrik quraşdırma və avtomatika işləri həyata keçirilib. Heyətin yaşayış otaqlarında və yeməkxanasında da təmir aparılıb.

Təmirdən sonra "Dədə Qorqud" dəniz sınağından uğurla keçib və istismara hazır olub. Tankerin uzunluğu 149,9, eni 17,3 metr, yükgötürmə qabiliyyəti 13 min tondur. O, eyni vaxtda bir neçə növ neft və neft məhsulları daşımaq üçün nəzərdə tutulub.




ASCO-nun Xəzər Dəniz Neft Donanmasının balansındakı "General Əliağa Şıxlinski" kran gəmisinin isə 600 tonluq kran qolu uğurla demontaj olunub. Bu işi "Bibiheybət" Gəmi Təmiri Zavodu, eləcə də "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun əməkdaşları yerinə yetiriblər.

Demontaj "Bibiheybət" Gəmi Təmiri Zavodunda "Azərbaycan" kran gəmisindən istifadə edilməklə həyata keçirilib. Bundan sonra kran qolu təmir edilərək yenidən öz yerinə qoyulacaq. Bu da kranın tam gücü ilə təhlükəsiz istismar olunmasını təmin edəcək.

Qeyd edək ki, 600 tonluq "General Əliağa Şıxlinski" kran gəmisi dənizdə neft və qazçıxarma obyektlərinin tikintisini həyata keçirir.

Xəzər Dəniz Neft Donanmasının balansında olan "Zülfi Hacıyev" kran gəmisinin də "Bibiheybət" Gəmi Təmiri Zavodunda əsaslı təmir işləri başa çatıb.

Təmir müddətində kranın burazlarının hərəkət etdiyi bütün istiqamətləndirici halqaları çıxarılıb və əsaslı təmir olunduqdan sonra yenidən öz yerində quraşdırılıb. Eləcə də baş mühərriklərin, nasosların, boru sistemlərinin, sanitar qovşaqlarının, elektrik mühərriklərinin cari təmir işləri aparılıb.

"Zülfi Hacıyev" gəmisi tərsanəyə qaldırılaraq gövdənin sualtı və suüstü hissəsində zədələnmiş sahələr dəyişdirilib, lazımi rəngləmə işləri görülüb. Həmçinin hərəkətsükan kompleksi, dib-yan armaturları, protektor qurğularının təmiri də yerinə yetirilib.

İşlər başa çatdıqdan sonra gəminin 100 tonluq yükqaldırma qabiliyyətinə malik kran qurğusunun sınaq işləri aparılıb və uğurla başa çatdırılıb. Mexanizm və elektrik avadanlıqlarının yoxlanılması məqsədilə gəmi dəniz sınağına çıxarılıb. Müvəffəqiyyətlə başa çatan sınaqdan sonra gəmi registr təsnifatı nümayəndələrinə təhvil verilib. Bu kran gəmisinin uzunluğu 98,55, eni 17 metrdir.

ASCO-nun Xəzər Dəniz Neft Donanmasının balansında olan daha bir gəmisi əsaslı təmir edilib.

"Bakinskaya-6" gəmisinin təmir işləri "Bibiheybət" Gəmi Təmiri Zavodunda aparılıb. Gəminin baş mühərrikləri, nasosları, yağ və su soyuducuları, hava balonlarının armaturları, boru sistemləri, sanitar qovşaqları təmir edilib. Bundan başqa, yaşayış otaqlarında yeni mebellər quraşdırılıb, su keçirməyən qapılar, illüminatorlar, ventilyasiya qapaqları sazlanıb və digər işlər aparılıb.

Mexanizm və elektrik avadanlıqlarının təmiri başa çatdıqdan sonra "Bakinskaya-6" dəniz sınağından keçirilib. Gəmi registr təsnifatı nümayəndələrinə təhvil verilib.

Yeri gəlmişkən qeyd edək ki, "Azərbaycanda yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair fəaliyyət planı"nın icrasını təmin etmək məqsədilə ASCO-da profilaktik tədbirlər davam etdirilir. Fəaliyyətdə olan bütün gəmilərdə müəyyənləşdirilmiş qrafikə uyğun olaraq dezinfeksiya işləri aparılır. "Rəsul Rza", "Qaradağ-7", "PSK-31", "Orion-3", "Orion-23"dən sonra onlarca digər gəmi də dezinfeksiya edilib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 25 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Tağıbəyli, Yusifcanlı, Füzuli rayonunun Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.






# Gənclik






Gələcəyə dəstək



# Cəmiyyətin ən fəal təbəqəsi

**Gəncliyin intellektual, mənəvi imkan və ölçülərinin geniş olması dövlətimiz üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycan dövləti çalışır ki, cəmiyyətin aparıcı təbəqəsi olan gənclər inkişaf və inteqrasiya baxımından dünyadakı vacib meyarlara cavab versinlər. Həqiqət odur ki, cəmiyyətin gələcəyi gənclərdir. Bu danılmaz gerçəkliyi siyasi fəaliyyəti boyunca yüksək dəyərləndirən, gəncliyə qayğını öz iş prinsipinə çevirən və onların inkişafı üçün hər cür lazımi tədbirlər həyata keçirən Ümummilli Lider Heydər Əliyev faktoru bir reallıq idi.**

> **“Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir... Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir”.**
>
> **Heydər ƏLİYEV**

Ulu Öndər ölkədə gedən demokratik islahatlara və insan hüquqlarının qorunmasına həmişə diqqət yetirirdi. İctimai-siyasi, mədəni həyatımızın müxtəlif sahələrində sistemli islahatlar aparır, bütün proseslərdə gənclərin roluna həmişə xüsusi yer verirdi. Müxtəlif qurumlarda, dövlət idarələrində, siyasi və iqtisadi arenalarda gənclərin fəal iştirakını təmin edirdi. Hakimiyyətdə olduğu bütün dövrlərdə Ulu Öndər gənclərə diqqət və qayğını dövlət siyasətinin əsas prioritet istiqaməti kimi müəyyənləşdirmişdi.

Heydər Əliyev ilk dəfə 1969-cu ildə hakimiyyətə gəldikdən sonra gənclərin sağlam ruhda böyümələri, mükəmməl təhsil almaları üçün mümkün olan bütün işləri yüksək səviyyədə həyata keçirmişdir. Ən bilikli və yüksək bacarıqlı gəncləri keçmiş SSRİ-nin tanınmış ali təhsil müəssisələrinə oxumağa göndərməsi hələ o illərdə Azərbaycana yeni intellektual səviyyə, həyata üstün baxışlar və geniş dünyagörüşü gətirmişdir.

Azərbaycan müstəqillik qazandıqdan bir müddət sonra ölkədə yaranmış hakimiyyətsizlik, özbaşınalıq, anarxiya və xaos bütün sahələrdə olduğu kimi, gəncliyin də həyatına çox ağır təsir göstərmişdir. Lakin Heydər Əliyevin xalqın təkidli tələbindən sonra müstəqil ölkənin rəhbərliyinə qayıdışı ilə gəncliyin də həyat və mübarizəsində əsaslı dönüş yaranmışdır. İlk gündən gəncliyin istək və arzularına, rastlaşdığı çətinliklərə müdrikliklə diqqət yetirilmiş, müstəqil ölkənin gənclər siyasətinin əsasları qoyulmuşdur. Bununla da 1993-cü ildən etibarən gənc nəsillə iş dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir.

Ulu Öndər Heydər Əliyev gənclər siyasətinin məqsədlərini, prinsiplərini, istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən edən və bu sahədə yaranan münasibətləri tənzimləyən xüsusi qanun imzaladı. Burada gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında xalqımızın tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması öz əksini tapdı.

Yeni nəslin inkişafının əsas amili gənclərin dövlət və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsidir. Bu məqsədlə ölkəmizdə rəhbərlik tərəfindən silsilə addımlar atıldı. Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1994-cü il tarixli fərmanı ilə ölkəmizdə Gənclər və İdman Nazirliyi yaradıldı. “Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir” - deyən Ulu Öndər sözügedən nazirliyin əsasını qoydu. Bu siyasi dövlət institutu qısa vaxtda gənclər siyasətinin əsas hədəflərini müəyyənləşdirdi və reallaşdırmağa başladı. 1995-ci ildə Gənclər Təşkilatlarının Milli Şurası yaradıldı. Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və bir çox vacib problemlərin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək məqsədilə Ümummilli Lider Heydər Əliyev tərəfindən hələ 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürüldü. Beləliklə, 2 fevral 1996-cı ildə Azərbaycan Gənclərinin I Forumu keçirildi. İlk forum Azərbaycanda gənclər siyasətinin müəyyən olunmasında mühüm rol oynadı. Yeri gəlmişkən qeyd edək ki, dünya üzrə gənclər günü yalnız 1999-cu ildə BMT-nin qərarı ilə elan edildi.

1997-ci il fevralın 1-də forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Ulu Öndər 2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında sərəncam imzaladı.

Bundan əlavə, gənclərin II Forumu, həmçinin imzalanmış “Dövlət gənclər siyasəti haqqında”, “Bədən tərbiyəsi və idman haqqında”, “Gənc istedadlar üçün təqaüdlərin təsis edilməsi haqqında” sənədlər, eyni zamanda “Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında”, “Gənc ailə”, “Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında”, “İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı”, “Ordudan tərxis olunmuş gənclərin məşğulluğu”, “Gənclər siyasəti haqqında” qəbul olunmuş proqramlar, qanunlar Azərbaycan gəncliyinin inkişafı yolunda çox mühüm faktora çevrildi.

Ulu Öndər 9 iyul 1999-cu ildə “Dövlət gənclər siyasəti haqqında” sənədə imza atmaqla bu sahədə böyük inkişaf xəritəsi tərtib etdi. Bu fərman çox geniş spektri - gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtının təşkili problemlərinin həlli, hüquqlarının müdafiəsi, respublikanın ictimai-siyasi və mədəni həyatında iştirakı ilə bağlı məsələləri əhatə edirdi. Heydər Əliyevin bu fərmanı dövlət orqanlarının diqqətinin gənclərin problemlərinin həllinə yönəldilməsi baxımından son dərəcə əhəmiyyətli sənəddir və indi də gənclər təşkilatları və gənclər üzrə dövlət strukturları tərəfindən mərhələ-mərhələ həyata keçirilir. Bu tarixi fərmanı, əslində, Azərbaycan gənclərinin həyatında yeni mərhələ, doğru dönüş nöqtəsi hesab etmək olar. Məhz bu fərmandan sonra, 9 aprel 2002-ci ildə “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu dövlət başçısı tərəfindən imzalandı. Bu qanun Azərbaycanda gənclər siyasətinin hüquqi əsaslarını ifadə edir və bu siyasətin qarşıya qoyduğu prinsipləri vahid konsepsiya halında, ayrıca maddələrlə tənzimləyir. Əslində, gənclər siyasətinin ən yaxşı tərifi də elə “Gənclər siyasəti haqqında” qanunun ilk maddəsində aydın şəkildə verilmişdir: “Gənclər siyasəti - gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək məqsədilə dövlət tərəfindən ictimai-siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şəraitin və təminatların yaradılmasına yönəlmiş tədbirlər sistemidir”.

Sözsüz ki, bu gün uğurla həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan Respublikasını inkişafa aparan təməl prinsiplərdən biri kimi qəbul olunur. Gənclər, əslində, cəmiyyətin və dövlətin səsidir. Güclü cəmiyyətin və güclü dövlətin formalaşdırılması üçün sağlam bədənli və sağlam ruhlu gənclərin olması mütləq vacib və əhəmiyyətlidir.

Bu baxımdan Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən cənab İlham Əliyev prezident seçilən vaxtdan etibarən gənclərlə iş məsələsinə eyni diqqətlə yanaşır. Prezident İlham Əliyev tərəfindən 2005-ci ildə “Azərbaycan Gəncliyi Dövlət Proqramı haqqında (2005-2009)” fərmanın imzalanması, Gənclər Siyasəti üzrə I Qlobal Forumun Azərbaycanda keçirilməsi, “Gənclər sahəsində Bakı Öhdəlikləri”nin qəbul edilməsi ölkəmizin gənclər siyasəti sahəsində uğurunu, yeni yanaşmaların və standartların tətbiqini əks etdirir. Son illərdə ardıcıllıqla qəbul edilmiş və hazırda uğurla həyata keçirilməkdə olan “Azərbaycan gənclərinin İnkişaf Strategiyası (2015-2025-ci illər)”, “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı” gənclərin fərdi inkişafı və qərarların qəbulu prosesində iştirakının artırılması istiqamətində yeni imkanlar yaradır.

Dövlətin gənclər siyasətində gənc alim və tədqiqatçıların fəaliyyətinin dəstəklənməsi, onların elmə həvəsləndirilməsi, yeniyetmə və gənclər üçün faydalı olan maarifləndirici, elmi-kütləvi, televiziya və radio verilişlərinin hazırlanması və yayımlanması da yeni dövlət proqramında qarşıya qoyulan vəzifələrdən biridir. Ölkəmizdə ardıcıl olaraq elm festivallarının keçirilməsi, alimlərin layihələrinin maliyyələşdirilməsi, gənc alimlərin beynəlxalq konfranslarda iştirakının təmin edilməsi, innovasiyalara əsaslanan laboratoriyaların, elmi-tədqiqat mərkəzlərinin yaradılması bu siyasətin getdikcə tətbiq olunan prinsiplərinin nəticəsidir. Bu gün aparılan islahatlar, təyinatlar, yaradılan strukturlar da məhz gənclərin iştirakı və töhfəsi ilə həyata keçirilir. Artıq Azərabaycan gəncliyi güc strukturlarından tutmuş idarəetməyə qədər çox ciddi sahələrdə öz sözlərini deməkdədir. Bu gün hər bir Azərbaycan gənci Ümummilli Lider Heydər Əliyevin ideyalarını öz fəaliyyətində daim rəhbər tutmalı, onun miras qoyduğu müstəqil Azərbaycanı gələcək nəsillərə inamla, əzmlə ötürməlidir.

***Emin BAĞIROV,***
***AMEA Gənc Alim və Mütəxəssislər Şurasının İdarə Heyətinin üzvü, mexanika-riyaziyyat üzrə fəlsəfə doktoru***

Tribuna

# Gənclərə geniş imkanlar yaradılır

**Hər bir ölkənin, cəmiyyətin gələcəyə baxışında gənclər siyasəti xüsusi yer tutur. İstənilən strateji qərar böyüməkdə olan nəslin maraqlarının təmin olunması, onlar üçün layiqli həyat şəraitinin yaradılması üçün atılır. Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, “Gənclər cəmiyyətin aparıcı qüvvəsidir”. Gənclik dövlətçilik ənənələrimizi, milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan miras qalmış gözəl adətlərimizi göz bəbəyi kimi qoruyub yaşadır.**

Gənclər siyasəti böyüməkdə olan nəslin vətənpərvər ruhda tərbiyə almasına, perspektivli vətəndaşlar kimi formalaşıb gələcək fəaliyyətlərində cəmiyyətimizə töhfə verməsinə hədəflənmişdir. Bakıda, respublikamızın müxtəlif regionlarında Prezident İlham Əliyevin sərəncamı ilə tikilmiş gənclər evləri, mədəniyyət mərkəzləri hər birimizin asudə vaxtının səmərəli keçməsinə, yeni bilik və bacarıqlar əldə etməsinə xidmət edir.



Ölkənin taleyüklü məsələlərində gəncliyin sözü və birliyi aparıcı, həlledici bir amilə çevrilmişdir. Hazırda gənclərimiz dövlət idarəçiliyi, iqtisadiyyat, mədəniyyət, idman və başqa sahələrdə uğurla çalışır, ölkəmizi şərəflə, yüksək səviyyədə təmsil edirlər. Qürurla demək olar ki, bu gün Azərbaycan gəncliyi üzərinə götürdüyü şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlməyi bacarır. Gənclərimizin sorağı beynəlxalq konfranslardan, dövlət qurumlarından, ölkələrarası mübadilə proqramlarından, intellektual bilik yarışlarından gəlir. Azərbaycanda xalqın iqtisadi, sosial-mədəni səviyyəsi yüksəldikcə, cəmiyyətdə də müsbət proseslər baş verir.

İstedadlı gənclərin dünyanın tanınmış universitetlərində təhsil alması məqsədilə “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində yüzlərlə gənc xarici ölkələrə təhsil almağa yollandılar. Hazırda məzun olub, vətənə qayıdan gənclər ölkəmizdə müxtəlif dövlət orqanlarında yüksək vəzifələr tutmaqdadırlar. Dövlət proqramı çərçivəsində xaricdə təhsil alan həkimlərimiz “COVID-19” virusuna qarşı ön cəbhədə vuruşaraq vətəndaşlarımızın sağlamlığının qorunması uğrunda mübarizə aparırlar. Gənclərimizin təqaüdlə xaricdə təhsil alması məqsədilə dövlətimiz xarici ölkələrlə əməkdaşlıq etməkdədir. “Hökümətlərarası Təqaüd Proqramı”na əsasən azərbaycanlı gənclər Macarıstan, Latviya, Qazaxıstan, Türkmənistan və Çin Xalq Respublikasının ali məktəblərində təhsil almaq hüququ əldə etmişlər. 2011-ci il dekabrın 19-da Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması gənclərin cəmiyyətdə daha da fəallaşmasına şərait yaratdı. Onların fərdi layihələrinin maliyyələşdirilməsi, istedadlı tələbələrin xaricdə təqaüdlə təhsil alması, beynəlxalq və yerli könüllülük proqramlarına cəlb olunmasında Gənclər Fondu mühüm rol oynayır.

Gənclərimiz yeni bacarıqlar əldə etmək üçün müxtəlif təşkilatların rəhbərliyi altında könüllülük proqramlarına cəlb olunurlar. Pandemiya ilə mübarizə dövründə könüllülərimiz yaşlı insanlara yardım göstərmiş, maarifləndirmə işləri aparmışlar. Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzi (AKƏM) tərəfindən başladılan “Bir-birimizi qoruyaq!” adlı kampaniya Azərbaycan Respublikasının müxtəlif bölgələrində fəaliyyət göstərmişdir.

Bu günlərdə 3 saylı DOST mərkəzinin açılışında iştirak edən Prezident İlham Əliyev öz çıxışında bildirmişdir: “Deyə bilərəm ki, gənclər cəmiyyətimizin ən fəal təbəqəsidir və bu gün gənclərə geniş imkanlar yaradılır. Gənclər önəmli vəzifələrə təyin olunur: nazir, icra başçısı vəzifələrinə. Eyni zamanda Milli Məclisdə kifayət qədər gənclərimiz var və DOST mərkəzində çalışan insanların demək olar ki, hamısı gənclərdir”.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və hazırda da uğurla davam etdirilən gənclər siyasəti Azərbaycan Respublikasının inkişafına öz töhfəsini verməkdədir. Gənclərimiz dövlət başçısının ətrafında birləşərək, onun daxili və xarici siyasətini dəstəkləyirlər.

***Əşrəf XANƏLİYEV,***
***Bakı Dövlət Universitetinin tələbəsi***

Gənc alimlər

# Uğurlu gənclər siyasəti nailiyyətlərimizin əsasıdır

**İnsan idrakının əsas forması hesab olunan elm bu gün bizi əhatə edən və yaşamalı olduğumuz gerçəkliyin getdikcə əhəmiyyətli və vacib bir hissəsinə çevrilməkdədir. Müasir cəmiyyətdə bəşəriyyətin inkişafındakı elmin rolu danılmazdır, elm insan fəaliyyətinin bütün sahələrinə təsir göstərərək yeni biliklərin yaradılmasını, təhsilin inkişafını, həyat keyfiyyətinin yaxşılaşdırılmasını və texnoloji proqresi təmin edir. Elm daim yenilənən, inkişaf edən, dəyişən bir sahədir.**



Ölkəmizdə elmin inkişafında gənclərin rolu əvəzsizdir. Gənclər bütün sahələrdə olduğu kimi, elm sahəsində də uğur qazanmağa, ölkəmizin inkişafına töhfə verəcək yeniliklər ixtira etməyə, onu layiqincə təmsil etməyə çalışırlar. Daha çox gəncin elmə cəlb edilməsi üçün müxtəlif ölkələr fərqli layihələr hazırlayır, qanunlar qəbul edir. Bütün bunlar gənclər siyasətində öz əksini tapır. Burada əsas məqsəd gənclərin müxtəlif sahələrdə biliklərinin artırılması, təkmilləşdirilməsi, təcrübə əldə etmək və digər imkanlar üçün şəraitin yaradılmasıdır.

Ümummilli Lider Heydər Əliyevin 2002-ci ildə “Gənclər siyasəti haqqında” imzaladığı qanun, daha sonra Prezident İlham Əliyevin imzaladığı “Azərbaycan gəncliyi Dövlət Proqramı (2005/2009-cu illər)”, “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə”, “2015-2025-ci illərdə Azərbaycan gənclərinin inkişaf strategiyası”, “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” dövlət proqramları, digər sərəncam və qanunamüvafiq sənədlər gənclərə göstərilən diqqət və qayğının güzgüsüdür.

Ölkəmizin gənclər siyasətində gənc alimlərin yetişdirilməsinə də xüsusi diqqət yetirilir. Azərbaycanlı gənc alimlər dünyanın bir çox ölkələrində müxtəlif sahələrdə inkişaf etmiş elm müəssisələri ilə tanış olmaq, təcrübə toplamaq, əldə etdikləri bilik və təcrübələri respublikada praktiki olaraq istifadə və inkişaf etdirmək imkanlarına sahibdirlər.

Gəncə şəhərində anadan olmuşam. 2006-cı ildə şəhərin K.D.Uşinski adına 29 saylı orta məktəbini əla qiymətlərlə bitirib, Bakı Dövlət Universitetinin Biologiya fakültəsinə daxil olmuşam. 2010-cu ildə həmin fakültənin bakalavr, 2013-cü ildə isə “Molekulyar biologiya” ixtisası üzrə magistr pilləsini fərqlənmə diplomları ilə bitirmişəm. 2012-ci ildən Bakı Dövlət Universitetində təhsillə paralel olaraq, AMEA Botanika İnstitutunun Bioloji məhsuldarlığın fundamental problemləri şöbəsinin (indiki AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun) beynəlxalq Molekulyar biotexnologiya laboratoriyasında kiçik elmi işçi kimi əmək fəaliyyətinə başlamışam. 2014-cü ildə AMEA Botanika İnstitutunun “Molekulyar Biologiya” ixtisası üzrə əyani doktoranturasına daxil olmuşam. Dissertasiya işimlə əlaqədar 2014-cü ilin avqust ayından 2015-ci ilin iyuluna kimi ABŞ-ın Fraunhofer Molekulyar Biotexnologiya Mərkəzində təcrübə proqramına qatılmışam. Proqram çərçivəsində yeni dərman preparatlarının hazırlanması sahəsində əldə etdiyim nailiyyətlərə əsasən təcrübələrimi davam etdirmək məqsədilə, ABŞ-ın Fraunhofer Molekulyar Biotexnologiya Mərkəzi tərəfindən dəvət məktubu almışam, 2016-2018-ci illər ərzində həmin mərkəzdə elmi işçi vəzifəsində çalışmışam. Apardığım tədqiqatlar zamanı elm üçün yeni nəticələr əldə edərək vətənə qayıtmışam. 2019-cu ildən etibarən, AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun beynəlxalq Molekulyar biotexnologiya laboratoriyasında böyük elmi işçi vəzifəsinə işə qəbul edilmişəm və hazırda biologiya elmləri üzrə fəlsəfə doktoru dissertasiyasını müdafiə etmək ərəfəsindəyəm.

2016-cı ilin mart ayında ABŞ-nın Delaver ştatında keçirilən “New Cells, New Vaccines” mövzusunda konfransda Fraunhofer Molekulyar Biotexnologiya Mərkəzində apardığım tədqiqatların nəticəsini əks etdirən posterim böyük maraq doğurmuşdur.

“Yüksək virulent və dərman preparatlarının təsirinə davamlı xəstəlik törədicilərinə qarşı yeni antibiotiklərin işlənilib hazırlanması” mövzusunda tədqiqat işimin nəticələri respublika və xarici jurnallarda nəşr edilib, dəfələrlə yerli və beynəlxalq konfranslarda təqdim olunaraq sertifikat və diplomlara layiq görülüb. 10 elmi əsərin müəllifiyəm.

2019-cu ilin sentyabr ayında Tacikistan Respublikasının Düşənbə şəhərində Beynəlxalq Elmlər Akademiyaları Assosiasiyasının (BEAA) 32-ci iclasının çərçivəsində “Gənc alimlərin elm, innovasiyalar və texnologiyaların inkişafında rolu” mövzusunda keçirilən konfransda AMEA-nın elmi fəaliyyəti və son illər ərzində əldə olunan nailiyyətləri və Gənc Alim və Mütəxəssislər Şurası haqqında məruzə ilə çıxış etmişəm.

2014-cü ildə elmi fəaliyyətdə fərqləndiyim üçün Azərbaycan Milli Elmlər Akademiyasının Fəxri fərmanı ilə təltif edilmişəm.

Biz gənclərin inkişafında dövlət başçısı, cənab İlham Əliyevin qayğısı daim hiss olunur. Son illər ərzində Azərbaycanın elm və təhsil sahəsində əldə etdiyi nailiyyətlər ölkəmizdə gənclər siyasətinin səmərəliliyinin göstəricilərindəndir. Azərbaycanın gənc alimlərinin elmin müxtəlif sahələrində söz sahibi olması və daim nüfuzlarının artırılması bizlərə yaradılan imkanların nəticəsidir. Elmlə məşğul olan gənclər onlara göstərilən qayğını yüksək qiymətləndirir və Azərbaycanda elmin inkişafı üçün dayanmadan çalışır.

***Aytən AĞAYEVA,***
***AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun böyük elmi işçisi***

Xoş məram

# Könüllülər hər işdə öndədirlər

**Azərbaycan Prezidenti tərəfindən 2020-ci ilin “Könüllülər ili” elan edilməsi bir sıra ictimai təşkilatlarda birləşən gənclərimiz üçün geniş imkanlar açmışdır. Elə bütün dünyanı bürümüş COVID-19 pandemiyasına qarşı mübarizədə də onların fəallığı ikiqat artdı. Dövlət başçısının çağırışına cavab olaraq könüllülər həyatımızın bütün sahələrini iflic edən bu gözəgörünməz bəlanın qarşısının alınmasında öz sözlərini deməklə nəyə qadir olduqlarını sübut etdilər.**



Belə bir çətin dövrdə naftalanlı könüllülər də fəallıqlarını ikiqat artırmışlar. Koronavirus (COVID-19) epidemiyası başlayan andan şəhərdə fəaliyyət göstərən könüllülər əhali arasında bu dəhşətli bəlaya qarşı maarifləndirmə işlərinə başlamış, küçələrdə, ticarət və ictimai iaşə obyektlərində təbliğat işləri aparmaqla, əhalini Nazirlər Kabineti yanında Operativ Qərargahın göstərişlərinə və qərarlarına sözsüz əməl etməyə səsləmiş, insanları şəxsi gigiyena qaydalarına əməl etməyə çağırmışlar.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın pandemiyaya qarşı mübarizə ilə bağlı çağırışına ilk qoşulanlar da könüllülər oldular. Koronavirus infeksiyasının ölkəmizdə yayılmasının və onun törədə biləcəyi acı nəticələrin qarşısının alınması istiqamətində dövlət tərəfindən atılan bütün zəruri addımları dəstəkləyən könüllülər əhalinin maarifləndirilməsində və qayğıya ehtiyacı olan inşanlara sosial xidmətlərin göstərilməsi istiqamətində həyata keçirilən tədbirlərdə əsl nümunə göstərdilər və indi də bu işi uğurla davam etdirirlər. Onlar ölkə rəhbərinin koronavirusla əlaqədar verdiyi tapşırıqların yerinə yetirilməsi üçün tez-tez şəhər xəstəxanasında olur, əhalinin tibbi müayinədən keçirilməsi sahəsində tibb işçilərinin yaxın köməkçilərinə çevrilirlər. Bunun nəticəsidir ki, şəhər əhalisinin xeyli hissəsi koronavirusla əlaqədar müayinələrdən keçirilmişdir.

Şəhərdə fəaliyyət göstərən könüllülər karantin dövründə Heydər Əliyev Fondu, SOCAR, şəhər icra hakimiyyəti, millət vəkilləri, “Regional İnkişaf “ İctimai Birliyi və şəhərdə fəaliyyət göstərən sahibkarlar tərəfindən ayrılmış ərzaq bağlamalarının və tibbi vasitələrin şəhid ailələrinə, tənha yaşayan ahıl insanlara, aztəminatlı ailələrə, əlillərə, eləcə də qayğıya ehtiyacı olan və ailə başçısını itirməyə görə sosial müavinət alan ailələrə çatdırılmasında fəal iştirak edirlər. Bundan başqa, gənc könüllülər “Evdə qal!” çağırış vərəqələrinin çoxmərtəbəli yaşayış binalarının sakinlərinə çatdırılmasında da fəallıq göstərirlər. Məhz bunun nəticəsidir ki, karantin dövründə qaydaları pozan və cərimə olunan ahıl vətəndaşlar və aztəminatlı ailələr qeydə alınmamışdır.

Karantin dövründə 65 yaşdan yuxarı insanların evdən çıxması qadağan olunduğu müddətdə onların sifarişi ilə ərzaq məhsullarının və dərman vasitələrinin alınıb evlərinə çatdırılması da könüllülər tərəfindən yüksək səviyyədə təşkil edilmişdir. Bundan başqa, tənha yaşayan ahıllara aidiyyəti qurumlarla birlikdə sosial məişət xidmətləri, o cümlədən ev təsərrüfatı ilə bağlı işlərdə, əsas tələbat mallarının alınması, kommunal ödənişlərin verilməsi və s. işlərin görülməsində xüsusi fərqlənirlər. İcra nümayəndələrinin və bələdiyyələrin tərtib etdikləri siyahıya əsasən öz işlərini yüksək səviyyədə quran könüllülər indiyədək 1000 nəfərə yaxın ailəyə ərzaq bağlamalarının çatdırılmasında yaxından iştirak etmişlər.

Lakin Naftalan könüllüləri öz işlərini bununla bitmiş hesab etmirlər. Onlar digər sahələrdə də fəallıq göstərir, “Könüllülər ili”ndə üzərlərinə düşən işin yüksək səviyyədə həyata keçirilməsini vətəndaşlıq borcu hesab edirlər.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# REGİONLAR



# Mingəçevirin sənaye potensialı güclənir



**Koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizədə Azərbaycanın uğur nümunəsi bu gün dünyanın nüfuzlu beynəlxalq təşkilatları tərəfindən təqdir olunmaqdadır. Respublika Prezidenti İlham Əliyevin bəşəriyyəti ağır problemlərlə üz-üzə qoyan bu çətin sınaqdan nisbətən az itkilərlə çıxmaq üçün dövlət səviyyəsində gördüyü tədbirlər, qəbul etdiyi qərarlar reallaşmaqda olan uğur strategiyasının əsas şərtidir.**





Bu ağrılı günlərdə aztəminatlı ailələrə dövlət büdcəsindən edilən yardımlar, dünya dövlətlərini silkələyən iqtisadi böhran dalğalarını zərərsizləşdirmək üçün həyata keçirilən kompleks tədbirlər ölkə vətəndaşlarında məmnunluq yaratmaqla bütövlükdə cəmiyyətdə yüksək əhvali-ruhiyyəni formalaşdırır. Xalq-dövlət birliyinin sarsılmaz olduğunu müəyyənləşdirir.

Dövlət başçısının zamanın hökmündən doğan "Biz birlikdə güclüyük!" çağırışı ölkənin ən böyük enerji təchizatçısı olan Mingəçevirdə də rezonans doğurmuşdur. Mayın 4-dən etibarən şəhərin park və xiyabanlarında, istirahət məkanlarında, ticarət və ictimai iaşə müəssisələrində Nazirlər Kabinetində fəaliyyət göstərən Operativ Qərargahın müəyyən etdiyi qayda və şərtlərə uyğun olaraq bir çox məhdudiyyətlər aradan götürülərək şəhər sakinlərinin sərbəst fəaliyyətinə şərait yaradılmışdır. Mingəçevir Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə pandemiyaya qarşı mübarizə tədbirlərinin icrası müvəffəqiyyətlə davam etdirilir. Şəhər icra hakimiyyəti tərəfindən yaşı 65-dən yuxarı olan 450 tənha qocaya ərzaq yardımı edilmişdir. Aztəminatlı ailələrə zəruri qayğı diqqət mərkəzindədir. Pandemiyaya qarşı mübarizə tədbirləri sırasında dezinfeksiya işlərinin davamlı qaydada aparılmasına xüsusi önəm verilir. Mart ayından başlayan dezinfeksiya işlərinin şəhərin sanitar-gigiyenik durumuna əhəmiyyətli təsiri sakinlərdə haqlı razılıq doğurur. Şəhər sakini, Milli Qəhrəman Rəşad Mirabovun atası Akif Mirabov deyir:









- Hər il yazın bu vədəsində şəhərimizdə ağcaqanad, milçək, yoluxucu xəstəliklər yayan müxtəlif həşəratlar ciddi narahatlıq doğurardı. İndi belə bir problemimiz yoxdur. Küçələrdə, yaşayış məhəllələrində, liftlərdə, avtobuslarda aparılan dezinfeksiya işlərinin səmərəsi böyükdür. Aztəminatlı ailələrə verilən yardımlar, şəhər xəstəxanasında çalışan həkimlərin göstərdikləri fədakarlıq hər kəsdə razılıq doğurur. Hər zaman dövlətin qayğısını həyatımızda hiss edirik. Şəhərimizdə hər evə, hər ailəyə ünvanlanan diqqətə görə dövlət başçısı İlham Əliyevə minnətdarıq.

Energetiklər şəhəri Mingəçevirdə pandemiyaya qarşı mübarizə tədbirləri ilə yanaşı, abadlıq, quruculuq işləri də uğurla davam etdirilir. Şəhərin sənaye müəssisələri ahəngdar fəaliyyət göstərir. Dövlətin davamlı qayğısı Mingəçevirin sosial-iqtisadi inkişafını ildən-ilə sürətləndirir. Keçən il şəhərin sənaye müəssisələrində 315.2 milyon manatlıq məhsul istehsal olunmuşdur. Bu, əvvəlki illə müqayisədə 98 milyon manat, yaxud 3.2 faiz çoxdur. İstehsal olunmuş məhsulun 249.1 milyon manatlığı dövlət müəssisələrinin, 21.1 milyon manatlığı isə qeyri-dövlət sektorunun payına düşür. 9 hündürmərtəbəli çoxmənzilli yaşayış binasının dam örtükləri və giriş blokları təmir edilmiş, küçələrə, məhəlləd axili yollara və səkilərə, ümumilikdə 142.733 kvadratmetr sahəyə yeni asfalt örtük salınmışdır. Yol və səkilərə 24.618 metr müxtəlif ölçülü beton səki daşları düzülmüş, Təbriz, Naxçıvan, Natəvan, Ü.Hacıbəyov, H.Kərimov, Nəsimi küçələrində asfalt işləri görülmüşdür. "Dostluq" parkının 2-ci hissəsində abadlıq və yenidənqurma işləri aparılmışdır. Parkın ərazisi 1.4 hektar genişləndirilərək əraziyə 3.350 kvadratmetr daş döşənmiş, 300-ə qədər ağac və dekorativ gül kolları əkilmiş, sahəsi 800 kvadratmetr olan mini-futbol meydançası, sahəsi 100 kvadratmetr olan musiqili fəvvarə, şahmat meydançası, uşaqlar üçün əyləncə yeri, 49 ədəd işıqlandırma dirəyi, 4 söhbətgah, 26 ədəd oturacaq quraşdırılmışdır. Şəhərin şərq girişində 2.4 hektar ərazi abadlaşdırılmışdır. Əraziyə yeni suvarma xətti çəkilmiş, çəmən otu səpilmiş, 1.100 ədəd ağac əkilmiş, işıqlandırma sistemi, fəvvarə, idman və uşaq meydançaları quraşdırılmışdır. Uzun müddətdən bəri baxımsız vəziyyətdə olan A.Qurbani dairəsində 1 hektarlıq ərazi abadlaşdırılıb şəhər sakinlərinin istifadəsinə verilmişdir.

Mingəçevirlilər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısını daim hiss edir və bundan son dərəcə məmnunluq duyurlar. Keçən il dövlət başçısının müvafiq sərəncamı ilə büdcədən ayrılan vəsait hesabına 10 hündür mərtəbəli yaşayış binasının 16 ədəd istismara yararsız lifti dəyişdirilmiş, zəruri təmir işləri görülmüşdür. Mingəçevir Şəhər İcra Hakimiyyətinin müraciəti əsasında dövlət başçısının 25 dekabr 2019-cu il tarixli sərəncamı ilə 4 yaşayış massivini şəhərlə birləşdirən avtomobil yollarının əsaslı təmiri məqsədilə 2.5 milyon manat vəsait ayrılmışdır. Yol rahatlığına dəyər verən şəhər sakinləri dövlət qayğısını minnətdarlıqla qarşılayırlar.

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində Mingəçevirə aid olan vəzifələr ardıcıl olaraq uğurla icra olunmaqdadır. Abadlıq, quruculuq işləri davam etdirilir. Şəhərin qaz təminatının, kanalizasiya sistemlərinin yaxşılaşdırılması sahəsində təqdirəlayiq işlər görülmüşdür. Dövlət proqramına uyğun olaraq A.Niftəliyev adına mədəniyyət mərkəzində əsaslı təmir işləri aparılmış, 14 saylı tam orta məktəb əsaslı təmir edilib istifadəyə verilmişdir. 13 saylı tam orta məktəbin yeni tədris binasının tikintisi, 16 saylı tam orta məktəbin əsaslı təmiri mədəniyyətin və təhsilin maddi-texniki bazasını möhkəmləndirməyə dövlət qayğısının bariz nümunəsidir.

Prezident İlham Əliyevin tapşırığı əsasında Azərbaycan İstilik Elektrik Stansiyasının infrastrukturunun təkmilləşdirilməsi, burada həyata keçirilən irimiqyaslı yenidənqurma və əsaslı təmir işləri hesabına Mingəçevirin sənaye potensialı daha da güclənmişdir. Sahibkarlığın inkişafına dövlət səviyyəsində göstərilən qayğı və diqqətin məntiqi nəticəsi olaraq Mingəçevirdə münbit şərait yaradılmışdır. Şəhərin sənaye müəssisələri - "Azneftemaş", "Mingəçevir Maşınqayırma Zavodu", "Azərkabel" ASC, "H-Tech İnvest" və "Mingəçevir Tekstil" MMC-lər səmərəli fəaliyyətləri ilə ölkə iqtisadiyyatına sanballı töhfələr verirlər.

Dövlətin qayğısından güc alan mingəçevirlilər doğma şəhəri cənnətə çevirmək üçün ürəklərinin odunu, əllərinin hərarətini əsirgəmirlər. Hazırda sayı 21 olan nümunəvi məhəllələrin sırası aydan-aya artmaqdadır. Yazın bu oğlan çağında Mingəçevir zümrüd libası, al-əlvan gülləri, yaraşıqlı park və xiyabanları, göz oxşayan səliqə-sahmanı ilə üzə gülür. Ana Kür bu yerlərdəki lal axışıyla sanki cilvələnən nur şəhərinin gözəlliyinə ayna tutur.

***Lazım QULİYEV,***
***"Azərbaycan***

# Tovuzlu kümçülər yüksək göstəricilər əldə edəcəklərinə əmindirlər

Hər ili uğurlu göstəricilərlə yola salan Tovuz kümçüləri bu il də ənənəni davam etdirməyi qarşılarına məqsəd qoymuşlar. Həmin məqsədlə cari il 350 qutu barama toxumu götürmüşlər. Bu isə 14 min kiloqram barama tədarükü deməkdir.







Tovuz Rayon Aqrar İnkişaf Mərkəzinin direktoru Emin Eyvazovla söhbətdən məlum oldu ki, rayonda bu il 311 nəfər barama tədarükü ilə məşğuldur: "Hazırda iqtisadi cəhətdən səmərəli olan baramaçılığın inkişafı istiqamətində bir sıra tədbirlər həyata keçirilir ki, bu da rayonda barama istehsalının artırılmasına geniş imkanlar açır. Artıq 4 ildir ki, rayonda baramaçılıq sürətlə inkişaf edir. Təkcə keçən il 325 qutu barama toxumu götürən 76 kümçü 11 min 556 kiloqram barama tədarük etmişdir".

Koronavirus infeksiyasının geniş yayıldığı indiki şəraitdə tovuzlu gümçülərin əlləri işdən soyumamışdır. Onlar Nazirlər Kabineti yanında Operativ Qərargahın tətbiq etdiyi karantin qaydalarına əməl etməklə bu il də bol məhsul uğrunda çalışırlar. Baramaçılar əmindirlər ki, kənd təsərrüfatının bu vacib sahəsinin inkişafında dövlətin göstərdiyi diqqət və qayğı hesabına daha çox qazanc əldə edəcəklər.

Hazırda rayonda baramaçılıqda zəngin təcrübə toplayan onlarla kümçü var. Onlardan biri də Əlibəyli kəndindən Zakir Tağıyevdir. Keçən il 7 qutu baramaqurdu götürən gümçü 280 kiloqram məhsul təhvil vermişdir. Bu il isə Zakir 8 qutu baramaqurdu götürmüşdür ki, ondan da 320 kiloqram məhsul tədarük etməyi qarşıya məqsəd qoymuşdur.

Ümumiyyətlə, Tovuzda baramaçılığa maraq ildən-ilə artır. Məhz bunun nəticəsidir ki, Aşağı Quşçu kəndindən Ramin Verdiyev, Emin Sarıyev, Xatınlı kəndindən Elbrus İsmayılov, Tovuz şəhərindən Adil Həsənov, Xaqani Məmmədov və başqaları baramaçılıqda hər il yüksək göstəricilərə nail olurlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Lənkəranda COVID-19 pandemiyası ilə mübarizə tədbirləri davam etdirilir

Koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri Lənkəran rayonunda da mütəmadi olaraq davam etdirilir. Lənkəran Şəhər İcra Hakimiyyəti tərəfindən keçirilmiş videogörüntülü müşavirədən sonra COVID-19 pandemiyası ilə mübarizə tədbirləri daha da gücləndirilib.





Rayondakı operativ qərargahın üzvləri və mobil qruplar tərəfindən pandemiya ilə bağlı vəziyyət nəzarətdə saxlanılır, vətəndaşlar karantin rejiminin tələblərinə düzgün riayət etməyə çağırılır, izahat-təbliğat işləri aparılır. Eyni zamanda pandemiya mənbələrinin yaranmasına imkan verməmək üçün şəhər təsərrüfatına daxil olan xidmət idarələrinin maşın-mexanizmləri və texniki avadanlıqları vasitəsilə kimyəvi-dezinfeksiya tədbirləri görülür. Dezinfeksiya işləri nəqliyyatda da gündəlik olaraq aparılır, avtobuslar hər gün səhərlər qarajda dezinfeksiya olunduqdan sonra xəttə buraxılır.

Ölkə ərazisində karantin rejiminin tələblərinin yumşalmasının rayon sakinlərində arxayınçılıq yaratmaması üçün Lənkəran şəhərində əhalinin daha sıx olduğu mərkəzi bazarın ətrafında, şəhər avtovağzalı ərazisində, xüsusilə vağzalın gözləmə salonunda növbəti dezinfeksiya işləri həyata keçirilib, vətəndaşlarla söhbət aparılaraq karantin rejimi qaydalarına riayət olunmasının vacibliyi bir daha izah olunub, ehtiyacı olan vətəndaşlara tibbi qoruyucu vasitələr və maskalar təqdim olunub.

***"Azərbaycan"***

# Balakəndə yazlıq bitkilərin əkin sahəsi 151 hektar artıb



Balakən rayonunun təsərrüfatlarında yazlıq bitkilərin əkini başa çatıb. Torpaq mülkiyyətçiləri bu il 12 min 162,1 hektar sahədə yazlıq bitkilər əkiblər. Bu, ötən illə müqayisədə 151,1 hektar çoxdur.

Bu barədə AZƏRTAC-ın bölgə müxbirinə Balakən Rayon Statistika İdarəsindən məlumat verilib.

Qurumdan bildirilib ki, son illər balakənli fermerlərin qarğıdalı əkininə marağı xeyli artıb. Belə ki, cari ildə təsərrüfatlarda qarğıdalı bitkisinin əkin sahəsi ötən illə müqayisədə 302 hektar artırılaraq 7 min 515 hektara çatdırılıb. Çoxillik yoncanın əkin sahəsi də əvvəlki ilə nisbətən 300 hektardan çox artırılaraq 1176 hektar olub. Bundan əlavə, məhsul istehsalçıları cari təsərrüfat ilində 607 hektarda kartof, 1943 hektarda tərəvəz, 341 hektarda bostan bitkiləri, 166 hektarda lobya, 414 hektarda tütün əkiblər.

# Koronavirusla mübarizədə Azərbaycanın tibbi resursları kifayət qədərdir

## Xəstəxanalar müvafiq tibbi ləvazimatlar, avadanlıqlar, süni tənəffüs cihazları ilə tam təchiz olunub



Artıq yarım ildir ki, bəşəriyyət yeni növ koronavirusla - COVID-19-la mübarizəyə atılıb. Bu kiçik gözəgörünməz virus dünyanın gərdişini dəyişib. Aylardır bütün ölkələr, insanlar qlobal pandemiyaya qarşı savaş açıb. Amma təəssüf ki, hələ də bu savaşda COVID-19 adlı bəla irəlidədir. Dünya ölkələri bütün səylərini qlobal problemə çevrilmiş koronavirus infeksiyası ilə mübarizəyə və profilaktika tədbirlərinə yönəltsə də, pandemiyanın qarşısını almaq hələ də mümkün deyil.

Bu istiqamətdə Azərbaycanda həyata keçirilən mühüm qabaqlayıcı və operativ tədbirlər infeksiyanın yayılmasını mümkün qədər məhdudlaşdırmağa və sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verib. COVID-19 virusunun Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə Prezident İlham Əliyevin tapşırığına əsasən hələ yanvar ayından zəruri qabaqlayıcı tədbirlər görülməyə başlandı. Profilaktik və təxirəsalınmaz qərarların həyata keçirilməsi üçün Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət qurumlarından ibarət Operativ Qərargah yaradıldı. Virusun geniş yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində çevik və sistemli preventiv tədbirlərin davamı olaraq martın 14-dən sosial izolyasiya qaydaları tətbiq olundu, aprelin 5-dən isə xüsusi karantin rejimi elan edildi.

### Azərbaycan adambaşına keçirilən testlərin sayına görə dünyada qabaqcıl yerlərdədir

COVID-19 virusunun diaqnostikası, habelə bu xəstəliyin müalicəsi üçün zəruri olan Avropa istehsallı laborator testlər, tibb avadanlığı və ləvazimatlar, qoruyucu vasitələr Azərbaycana gətirildi, paytaxt və regionlarda xüsusi rejimli xəstəxanalar və karantin zonaları yaradıldı. Xüsusi rejimli xəstəxanalar müvafiq dərman və qoruyucu vasitələrlə təmin olundu, hər bir karantin zonalarına tibb müəssisələrinin rəhbərləri, həkim və orta tibb heyəti ezam edildi, virusla mübarizədə digər dövlətlərdəki həkim-ekspertlərlə təcrübə mübadiləsi aparıldı. Ümumdünya Səhiyyə Təşkilatı və digər beynəlxalq qurumlarla COVID-19 virusu ilə mübarizə çərçivəsində sıx əməkdaşlıq quruldu. Ümumdünya Səhiyyə Təşkilatının Bakı ofisi və Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan xəstəxanalarında COVID-19-a qarşı mübarizə tədbirləri ilə əlaqədar əsas bacarıqları gücləndirmək üçün REACT-C19 layihəsi həyata keçirildi. 19 mütəxəssis Türkiyədə təlim keçərək ölkədəki xüsusi rejimli xəstəxanalarda fəaliyyətə başladı.

Ölkədə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün yeni, ən müasir standartlar səviyyəsində olan əlavə tibbi laboratoriyalar alındı, diaqnostik alətlər və tibbi ləvazimatlar vaxtında ölkəyə gətirilərək, tibb müəssisələrinə təhvil verildi.

Virusun diaqnostikası üçün tibb müəssisələrində dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir laboratoriya sistemləri quruldu, onlar Avropa ölkələrinin buraxdığı testlərlə təchiz edildi. Ölkədə testlərin aparılması üçün 23 laboratoriya fəaliyyət göstərir. İyunun 5-nə qədər olan müddətdə Azərbaycanda koronavirusa yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar aparılan testlərin sayı 322.574-ə çatıb. Adambaşına keçirilən testlərin sayına görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir.

Dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə 10 modul tipli yeni xəstəxananın tikintisinə start verildi, martın sonunda istifadəyə verilmiş "Yeni klinika" müasir tibb müəssisəsi koronavirus xəstələrinin müalicəsi üçün ayrıldı. Eyni zamanda virusla mübarizə sahəsində ölkədəki tələbatı qarşılamaq məqsədilə qoruyucu maska və digər zəruri tibbi ləvazimatların istehsalına başlanıldı.

### "Hazırda mövcud xəstəxana fondu bizim tələbatımızı ödəyir"

Mayın 7-də Bakıda modul tipli ilk xəstəxana kompleksinin açılışında çıxışı zamanı dövlət başçısı İlham Əliyev son 16 il ərzində ölkəmizdə 700-dən çox səhiyyə ocağının tikilib və ya əsaslı təmir edildiyini nəzərə çarpdıraraq bildirdi ki, artıq mövcud xəstəxana fondu, xüsusilə müasir xəstəxanaların fəaliyyəti uzun illər ərzində tələbatımızı ödəyəcək. Ancaq koronavirus pandemiyası, əlbəttə ki, öz qaydalarını diktə edir, ona görə yeni xəstəxanaların tikintisi labüddür. Bu xəstəxana və bundan sonra tikiləcək xəstəxanalar koronavirusa qarşı mübarizədə böyük rol oynayacaq.

Prezident qeyd etdi ki, ölkəmizin müxtəlif bölgələrində 10 belə xəstəxananın tikintisi nəzərdə tutulur. Əlbəttə ki, çarpayı sayının artırılması hər bir ölkə üçün koronavirusa qarşı mübarizədə xüsusi rol oynayır: "Biz indi bəzi inkişaf etmiş ölkələrin təcrübəsini görürük. Görürük ki, orada çarpayı çatışmazlığı ucbatından xəstələr vaxtında müalicə ala bilmir, koronavirusa yoluxmuş bir çox insan, ümumiyyətlə, xəstəxanalara götürülmür, onlar evlərdə qalırlar. Əlbəttə, evlərdə onları müalicə, onların vəziyyətini monitorinq etmək qeyri-mümkündür.

Azərbaycanda koronavirusa qarşı mübarizədə bizim təcrübəmiz hesab edirəm ki, ən mütərəqqi və ən insansevər təcrübədir. Çünki bizim bütün xəstələrimiz xəstəxanalarda yerləşdirilib və həkimlər onlara gecə-gündüz xidmət edirlər. Yeni xəstəxanaların tikintisi, əlbəttə, gələcəyə hesablanıb. Çünki hazırda mövcud xəstəxana fondu bizim tələbatımızı ödəyir və 20-dən çox dövlət xəstəxanası koronavirus xəstələrinin sərəncamına verilibdir, o cümlədən ən yeni və ən müasir 575 çarpayılıq "Yeni klinika". Orada hazırda xəstələr müalicə olunurlar. Bu, gələcəyə hesablanmış düzgün addımdır, çünki heç kim bilmir pandemiya nə qədər davam edəcək, heç kim bilmir bunun gələcək mərhələləri nədən ibarət olacaq. Ona görə biz tam hazır olmalıyıq".

Dövlət başçısı əlavə etdi ki, atılan bütün addımlar qabaqlayıcı xarakter daşıyır. Bu xəstəxananın və bundan sonra buna oxşar 9 xəstəxananın istifadəyə verilməsi 1-2 ay ərzində nəzərdə tutulub.

Prezidentin Ehtiyat Fondundan tibbi avadanlıqların, ləvazimatların alınması və işi düzgün təşkil etmək üçün 100 milyon manat vəsait ayrıldığını xatırladan dövlət rəhbərinin sözlərinə görə, əlavə 150 milyon manat hazır vəziyyətdə ehtiyatda saxlanılır, lazım olan vaxtda ondan da istifadə ediləcək: "Əlbəttə, bütün bu kompleks tədbirlər - testlərin keçirilməsi, xəstəxanaların, laboratoriyaların fəaliyyəti və həkimlərin peşəkarlığı, işin düzgün təşkili bizə imkan verdi ki, hazırda bu vəziyyətdən istədiyimiz kimi, az itkilərlə çıxaq".

### "Ölkəmizdə yataq sayı kifayət qədərdir"

Ötən gün Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı da deyib ki, hazırda COVID-19-la mübarizədə tibbi resurslarımız kifayət qədərdir. Xüsusi rejimli xəstəxanalarda 5 mindən çox çarpayı ayrılıb. Modul tipli xəstəxanalarda iki min çarpayı olmaqla, ümumilikdə, koronavirusla mübarizə üçün 7 min çarpayının ayrılması nəzərdə tutulub: "Məlumdur ki, dövlət başçısının imzaladığı sərəncamla ölkədə hər biri 200 çarpayı olmaqla 10 modul tipli xəstəxana tikilir. Onlardan ikisi Bakıda, biri Abşeronda, biri Sumqayıtdadır. Bu gün onların resurslarından hələ istifadə etməmişik. Digər xəstəxanalarda kifayət qədər resurslarımız var. Hətta bu xəstəxanalar hamısı dolmuş olsa belə, bizim ölkəmizdə yataq sayı kifayət qədərdir. Sadəcə yataqlarla iş bitmir. O xəstəxanalar müvafiq tibbi ləvazimatlar, süni tənəffüs cihazları, qeyri-invaziv cihazlar və digər avadanlıqlarla tam təchiz olunub. Dünyanın heç bir ölkəsi, inkişaf etmiş səhiyyə sistemi bu xəstəliyə hazırlıqlı deyildi. Lakin sərt karantin rejimi dövründə tətbiq edilən məhdudiyyətlər bizə imkan verdi ki, bütün nöqsanlarımızı sürətlə analiz edək, ölkə rəhbərliyinə təqdim edək. Ölkə rəhbərliyi də ayırdığı vəsaitlərlə zəruri ehtiyacları qısa müddətdə tamamladı. Hazırda bu sahədə heç bir çatışmazlıq yoxdur".

COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması ilə əlaqədar dövlət tərəfindən həyata keçirilən bütün tədbirlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanın hər bir sakininin sağlamlığının qorunması məqsədini daşıyır. Bu sahədə aparıcı beynəlxalq təşkilat olan Ümumdünya Səhiyyə Təşkilatı də ölkəmizdə görülən işlərə yüksək qiymət verir. Dövlət üzərinə düşən vəzifələri layiqincə həyata keçirir. İndi qalır vətəndaşların üzərinə düşən vəzifələr - qoyulan qaydalara riayət etmək, nizam-intizam göstərmək. İndiki şəraitdə koronavirusla mübarizədə uğurun əsas şərti məhz vətəndaşların məsuliyyətindən asılıdır. Bu mübarizədə cəmiyyət olaraq birlik nümayiş etdirməli, tətbiq edilən qaydalara intizamla yanaşmalı, tibbi maskalardan istifadə etməli, sosial məsafə saxlamalıyıq. Bu, hər birimizin şəxsi məsuliyyəti, vətəndaş borcudur. Məsuliyyətli olaq, özümüzü, ailəmizi, ətrafımızı, dolayısı ilə xalqımızı gözəgörünməz düşməndən qoruyaq.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***




# Təəssüf ki, məsuliyyət hissi yoxdur

## Koronavirusla mübarizədə qazandığımız nailiyyətləri buna görə əldən verib tam qapalı rejimə keçirik

*Əvvəli 1-ci səh.*

Ona görə də karantin rejiminin yumşaldılması dayandırılır və yenidən məhdudlaşdırılma aktivləşdirilir: "Belə ki, cümə günü axşamdan bazar ertəsi səhərə kimi tam qapadılma tətbiq olunacaq. İctimai və fərdi nəqliyyat hərəkəti, küçəyəçıxma, iş rejimi məhdudlaşdırılacaq, mağazalar qapadılacaq. Bir sözlə, tam qapalı rejim yaradılacaq".

Operativ Qərargahın qərarına əsasən, 2020-ci il 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində bütün iş, xidmət və ticarət sahələri üzrə fəaliyyət, eyni zamanda ictimai nəqliyyatın və avtomobillərin hərəkəti dayandırılacaq. Qeyd olunan tarixdə əhalinin yaşayış yerlərini və ya olduğu yerləri tərk etməsi qadağan edilir.

Yalnız xüsusi təyinatlı, qəza-bərpa, təcili tibbi yardım avtomobillərinin və fəaliyyətinə icazə verilən orqanların (qurumların) və təşkilatların xidməti avtomobillərinin hərəkətinə icazə veriləcək:

siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilən dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların fəaliyyəti;

xəstəxanalar, təcili tibbi yardım müəssisələrinin fəaliyyəti;

sosial xidmət müəssisələrinin fəaliyyəti, o cümlədən əqli və hissiyyat pozuntusu olan, habelə xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün baxıcılıq xidməti;

kommunal xidmətlər (su təchizatı və kanalizasiya, qaz təchizatı, istilik təchizatı, enerji paylanması, məişət tullantılarının yığılması və utilizasiyası);

elektrik enerjisinin istehsalı və təchizatı;

meliorasiya və su təsərrüfat

### Vətəndaşlar kütləvi şəkildə qaydaları pozmağa cəhd edirlər





Hazırda COVID-19-la mübarizənin yeni mərhələsinə qədəm qoymuşuq və vəziyyət heç də ürəkaçan deyil. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı vurğulayır ki, bu həftə başlayandan indiyədək koronavirusa yoluxmada ciddi say artımı ilə qarşı-qarşıyayıq: "Çox təəssüf ki, vətəndaşlar kütləvi şəkildə qaydaları pozmağa cəhd edirlər. Onlar cəmiyyətin müxtəlif təbəqələrinin müraciətinə laqeyd yanaşırlar. Nəticədə rəqəmlər artır və tibb müəssisələrinin üzərinə böyük yük düşür".

Koronavirus infeksiyasının yayılmasına səbəb olan əsas hallardan biri də əhalinin qoruyucu maskalardan istifadə etməməsi ilə əlaqədardır.

Buna görə də artıq ölkəmizdə epidemiya əleyhinə, sanitariya-gigiyena və karantin rejimləri dövründə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə cərimələr müəyyənləşdirilib.

Belə ki, epidemiya əleyhinə, sanitariya-gigiyena və karantin rejimləri dövründə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə fiziki şəxslər 50, vəzifəli şəxslər 100, hüquqi şəxslər 200 manat məbləğində cərimə ediləcək. Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi İnzibati Xətalar Məcəlləsinə edilən dəyişiklikdə əksini tapıb.

Bu xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən epidemiya əleyhinə, sanitariya-gigiyena və karantin rejimləri dövrü başa çatanadək təkrar törədilməsinə görə fiziki şəxslər 100 manat, vəzifəli şəxslər 200 manat, hüquqi şəxslər 400 manat məbləğində cərimələnəcək.

### Hələ də COVID-19-la mübarizə ilə bağlı nə peyvənd, nə də müalicə üsulu var

Operativ Qərargahın xüsusi karantin rejiminin müəyyən günlərdə sərtləşdirilməsi qərarı koronavirusun yayılma sürətinin azaldılmasından, onun törədə biləcəyi fəsadların minimuma endirilməsindən irəli gəlib. Bu qərardakı məhdudlaşdırıcı mahiyyət ümumi xarakterli olmaqla təhlükəli virusdan müdafiədə effektivliyi artırmaq, əhalini qorumaq, mümkün qədər çox insanın evdə qalmasını təmin etmək məqsədi daşıyır.

Bu məqamda hər birimizin üzərinə böyük iş düşür. Əgər həyatımızın normal məcraya yönəlməsini istəyiriksə, vətəndaş məsuliyyəti, milli həmrəylik göstərməliyik. Hər bir şəxs özünü, yaxınlarını və digər cəmiyyət üzvlərini qorumaq üçün mövcud sanitar-gigiyenik qayda və tələblərə ciddi riayət etməli, başqalarını da bu fəaliyyətə dəvət etməlidir.

Pandemiya vəziyyəti hələ də davam etdiyindən və COVID-19 infeksiyasının müalicəsi üçün zəruri dərman preparatı, eyni zamanda bu xəstəliyə qarşı peyvənd tapılmadığından virusla mübarizə hər kəsin gündəlik həyat tərzinə çevrilməlidir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Bürosunun direktoru Hans Henri Kluge xəbərdarlıq edib ki, yeni növ koronavirus infeksiyasının yenidən alovlanması ilə bağlı real təhlükə var: "Koronavirusun yayılmasının qarşısı alınmasa, xəstəlik dağıdıcı ola bilər: "Məhdudiyyətləri aradan qaldıran ölkələrin sayı artdıqca, COVID-19-un yenidən alovlanması təhlükəsi yaranır. Hazırda vəziyyət ilin əvvəli ilə müqayisədə heç də yaxşı deyil. Bizim hələ də COVID-19-la mübarizə ilə bağlı nə peyvəndimiz, nə də müalicə üsulumuz var".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# "icaze.e-gov.az" portalının fəaliyyəti yenidən aktivləşdirilib

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə müvafiq qərarına əsasən "icaze.e-gov.az" portalının fəaliyyəti yenidən aktivləşdirilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, belə ki, 2020-ci il 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək məhdudiyyətlərin tətbiq edildiyi müddətdə fəaliyyətinə icazə verilən iş və xidmət sahələrində işləyən şəxslərin hərəkətinə işəgötürən tərəfindən həmin şəxslər barədə məlumatlar elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra yol verilir.

Xüsusi karantin rejimi müddətində əməkdaşlar üçün icazənin alınması ilə bağlı qeydiyyatdan keçmiş dövlət və özəl təşkilatların portaldan istifadə rahatlığının, vaxt və resurslara qənaətinin təmin edilməsi məqsədilə "icaze.e-gov.az" portalında fəaliyyətinə icazə verilmiş qurumların əməkdaşlarının icazələri ləğv edilməyib. Belə ki, dövlət və özəl təşkilatların möhür səlahiyyətli şəxsləri portala daxil olaraq sistemdə qeyd edilmiş əməkdaşın adının qarşısında "Aktivləşdir" düyməsini sıxaraq icazəsini yenidən aktivləşdirə bilərlər. Adları sistemdə olmayan əməkdaşların məlumatları isə icazə alınması üçün portala daxil edilməlidir. Yalnız Nazirlər Kabinetinin müvafiq qərarına əsasən fəaliyyətinə icazə verilən sahələrin əməkdaşlarının icazələri aktivləşdirilə bilər. Bu səbəbdən dövlət və özəl təşkilatlara əməkdaşlarının icazələrini aktivləşdirməmişdən öncə fəaliyyət sahələrinə Nazirlər Kabineti tərəfindən icazə verildiyinə əmin olmaları tövsiyə olunur.

Vətəndaşlar mövcud icazələrinin statusuna "myGov" portalında baxa bilərlər. Bunun üçün vətəndaş "myGov" portalına daxil olaraq öz şəxsi kabinetində "Məlumatlarım" bölməsini seçə, açılan pəncərədə "İcazələrin Alınması və Monitorinqi Sistemindən arayış"ın üzərinə sıxaraq öz icazəsinə baxa və ya elektron formasını yükləyə bilər.

Ətraflı məlumat üçün 108 "Çağrı" Mərkəzi ilə əlaqə saxlamaq mümkündür.

# Agentlik "YouTube"da "Küçələrə su səpmişəm" xalq mahnısının fars mahnısı kimi təqdim edilməsinə münasibət bildirib

Son günlər ölkə mətbuatında və sosial şəbəkələrdə "Küçələrə su səpmişəm" Azərbaycan xalq mahnısının "YouTube" portalında fars mahnısı kimi verilməsi haqqında məlumatlar yayılıb.

Əqli Mülkiyyət Agentliyi dərhal bu məsələni nəzarətə götürüb və müvafiq araşdırma aparıb.

Agentlikdən AZƏRTAC-a bildirilib ki, bir sıra "YouTube" kanallarında, o cümlədən "chekhabar1234" və "Persian Song" adlı kanallarda iranlı musiqiçi Fereydoun Asraeinin ifasında "Dooset daram" adlı mahnı yerləşdirilib və həmin mahnının Azərbaycan xalq mahnısı olması barədə məlumat qeyd edilməyib. Bununla bağlı bildiririk ki, qeyd edilən mahnının musiqisi Azərbaycan xalq mahnısı "Küçələrə su səpmişəm" mahnısının musiqisidir. Burada mahnının sözləri dəyişdirilib və musiqinin mənşəyi barədə məlumat göstərilməyib. Mahnının musiqisinin bu cür mənimsənilməsi və dolayısı yolla fars musiqisi kimi təqdim olunması kobud hüquq pozuntusudur. Bu, həmçinin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Müəlliflik hüququna dair Müqaviləsinin və ÜƏMT-nin İfalar və fonoqramlara dair Müqaviləsinin müddəalarına ziddir.

Mahnının Azərbaycan xalqının mədəni irsinə məxsusluğu çoxlu sübutlarla təsdiqlənir. "Küçələrə su səpmişəm" mahnısı XX əsrin əvvəllərindən başlayaraq bir sıra Azərbaycan xalq mahnıları toplularına daxil edilib. Misal üçün, görkəmli Azərbaycan bəstəkarları Üzeyir Hacıbəyli və Müslüm Maqomayevin 1927-ci ildə nəşr olunan "Azərbaycan türk el nəğmələri", Bülbül Məmmədovun 1956-cı ildə nəşr olunan "Azərbaycan xalq melodiyaları" (I cild Səid Rüstəmov), görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun 1952-ci ildə nəşr olunan "Azərbaycan xalq mahnıları", Davud Məmmədbəyovun 1965-ci ildə nəşr olunan "Azərbaycan lirik xalq mahnıları", Salih Turhanın 1991-ci ildə Türkiyənin Ankara şəhərində nəşr olunan "Azerbaycan halk mahnıları" kitablarında "Küçələrə su səpmişəm" mahnısının notları və sözləri birlikdə çap olunub.

Mahnı, eyni zamanda 1954-cü ildə çəkilmiş "Doğma xalqıma" adlı filmdə səsləndirilmişdir.

Görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun 1963-cü il 12 iyun tarixli ərizəsi əsasında onun tərəfindən "Küçələrə su səpmişəm" xalq mahnısını yenidən işlənmiş variantı Ümumittifaq Müəllif Hüquqları Agentliyinin Azərbaycan şöbəsində (indiki Əqli Mülkiyyət Agentliyində) kataloqa daxil edilib və qeydə alınıb. Mahnının yenidən işlənmiş variantının Rəşid Behbudov tərəfindən 1963-cü ildə ifa olunmuş variantı "YouTube" kanalına yüklənib.

"Küçələrə su səpmişəm" xalq mahnısı, həmçinin Azərbaycanın məşhur ifaçılarından Bülbül, Şövkət Ələkbərova və başqaları tərəfindən səsləndirilib, maddi daşıyıcılara yazılaraq "YouTube" səhifələrinə yüklənib.

Xüsusi olaraq vurğulamaq istəyirik ki, "Küçələrə su səpmişəm" xalq mahnısı iranlı musiqiçi Fereydoun Asraei tərəfindən Azərbaycan və fars dillərində ifa olunaraq "Khuneh be Dush" adlı albomda "Dustat daram" adı ilə 8-ci sırada yer alıb, həmin albom onun razılığı ilə "www.amazon.com" saytında yerləşdirilib və ən əsası, Azərbaycan folklor nümunəsi (by Azeri Folk) kimi qeyd edilib.

Agentlik tərəfindən sadalanan faktlar və mənbələr əsasında araşdırmanın nəticələrini əhatə edən təfsilatlı müraciət hazırlanıb və "YouTube" portalının müvafiq bölməsinə ünvanlanaraq, "chekhabar1234" və "Persian Song" adlı kanallarda, eləcə də digər kanallarda "Küçələrə su səpmişəm" Azərbaycan xalq mahnısının adı və mənşəyi barədə məlumatların əlavə olunması, əks təqdirdə isə həmin kanalların bağlanılması xahiş edilib.

Əliqulu Qəmküsar - 140

# Nakam ömürlü şair…

Azərbaycan ədəbiyyatının, mətbuatının, teatrının inkişafında misilsiz xidmətləri olan, Əliqulu Qəmküsar kimi adını tariximizə yazan, məşhur satirik şair, publisist, mədəniyyət xadimi Əliqulu Nəcəfov 1880-ci ildə Naxçıvanda dünyaya göz açıb. Ondan qabaq şairlik yolundan atası Məşədi Ələsgər Nəcəfov "Səba", əmisi Məmmədhüseyn Nəcəfzadə "Fani", ana babası Məşədi Əsəd "Məddah" təxəllüsü ilə yazdıqları şeirlərlə keçiblər. Dayıları - Moskva Universitetinin Hüquq fakültəsində oxumuş Fərəculla Şeyxov və 1906-1911-ci illərdə istiqlal mücahidi Səttarxanın başçılıq etdiyi inqilabi hərəkatda fəal iştirak etmiş Nəsrulla Şeyxov Naxçıvan teatrının yaradıcılarından olublar. Mətbuata, mədəniyyətə açıq fikirli münasibətləri ilə seçilən bu ziyalılar, eləcə də görkəmli pedaqoq Məhəmməd Tağı Sidqinin məşhur "Tərbiyə" məktəbində aldığı yeni üsullu dünyəvi təhsil onun həyat yolunun müəyyənləşməsində müstəsna rol oynayıb. Gələcəyin şairi, mətbuat adamı, mədəniyyət mücahidi, fəal ictimai xadimi Əliqulu Nəcəfovun dünyagörüşü belə bir mühitdə formalaşıb.

Mətbuat meydanına XX əsrin ilk anadilli orqanı olan "Şərqi-Rus" qəzetində dərc olunan məqalələri ilə çıxıb. İlk mətbu əsəri 1904-cü ildə bu qəzetin 28 dekabr tarixli 260-cı sayında təqdim edilib.

*Dinəndə yandı dilim,*
*Dinməyəndə dil yandı.*
*Nə dərdi gizlədə bildim,*
*Nə aşikar eylədim.*

misraları ilə başlayan həmin şeir onun istedadının ilk təcəssümü olub. Dövrün bir çox istedadlı qələm və fikir adamları kimi o da "Şərqi-Rus"un fəaliyyətində iştirak edib. Ancaq Əliqulu Nəcəfovu Əliqulu Qəmküsar kimi tanıdan, məşhurlaşdıran başqa bir mətbu orqan olub...

Azərbaycanın ilk satirik mətbu orqanı olan "Molla Nəsrəddin" jurnalının nəşrə başlaması millətsevər ziyalılar tərəfindən sevinclə qarşılanıb. Jurnalın baş redaktoru Cəlil Məmmədquluzadə istedadına bələd olduğu qələm adamlarını əməkdaşlığa dəvət edib. Bunun sayəsində "Molla Nəsrəddin" dövrün görkəmli ziyalılarını bir araya yığaraq, onları dostlaşdıraraq, bir ideya, bir məslək uğrunda mübarizəyə istiqamətləndirib.

"Molla Nəsrəddin" bir çoxu kimi, ona da böyük şöhrət qazandırıb. Doğrudur, digər mətbuat orqanları - "Həyat", "İrşad", "Sədayi-həqq", "Al bayraq", "Gələcək"lə əməkdaşlığı da uğurlu olub. Ancaq Əliqulu Qəmküsar yaradıcılığında "Molla Nəsrəddin" jurnalı xüsusi yer tutub. O, bu məşhur jurnalda "Xadimi-millət", "O taylı", "Cüvəllağı", "Cüvəllağı bəy", "Sarsaqqulu bəy" və başqa imzalarla çıxış edib. 1913-cü ildə Əliqulu Qəmküsar Cəlil Məmmədquluzadənin təklifi ilə jurnalın ikinci redaktoru olub.

Culfada yaşadığı illərdə Əliqulu Qəmküsar Səttarxan hərəkatında iştirak edib.

Azərbaycan ədəbiyyatında və mətbuatında daha çox satirik şair və publisist kimi məşhurlaşan Əliqulu Qəmküsarı dövrdaşları həm də fədakar teatr xadimi kimi tanıyıblar. Naxçıvanda teatrın yaranmasında, inkişafında o, böyük xidmətlər göstərib. Əliqulu Qəmküsar Cəlil Məmmədquluzadənin "Ölülər" əsərinin baş qəhrəmanlarından birinin - Şeyx Nəsrullah obrazının unudulmaz ifaçılarından olub. "Ölülər"in Naxçıvanda, Bakıda, Gəncədə, eləcə də Azərbaycandan kənarda - Aşqabad, Daşkənd, Səmərqənd, Kazan, Həştərxan, Vladiqafqaz və Dərbənddə tamaşaya qoyulması Şeyx Nəsrullahın mahir ifaçısı kimi Əliqulu Qəmküsara uğur gətirib.

Əliqulu Qəmküsarla bərabər, Naxçıvanda "Ölülər"in tamaşaya qoyulmasında iştirak edən, İsgəndər rolunun ifaçısı, teatrşünas və rejissor Rza Təhmasib öz təəssüratlarını belə qələmə alıb: "Şeyx Nəsrullah rolunun mən bir çox ifaçılarını görmüşəm. Lakin açıq deməliyəm ki, heç kəs islamiyyəti dərindən bilən, mollaların həyat və psixologiyasına yaxşı bələd olan bu xırda cüssəli adamdan üstün tutula bilməz". Şeyx Nəsrullah obrazının ifası elə əks-səda yaradıb ki, ruhanilərin fitvası ilə Əliqulu Qəmküsar küçədə möhkəm döyülüb, Bazarçayına atılıb. Ancaq bununla Əliqulu Qəmküsarın gözünün odunu ala bilməyiblər. Sonradan o, başına gələnlər barədə deyib: "Mən elə bilirdim ki, məni döymürlər, başımı tumarlayırlar".

O, 1910-cu ildə Culfada teatr truppasına rəhbərlik edib, Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyasını, Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan", "Dağılan tifaq" faciələrini tamaşaya qoyub. Əliqulu Qəmküsarın təşəbbüsü ilə 1917-ci ildə Naxçıvanda "El güzgüsü" dram cəmiyyəti yaranıb.



Əliqulu Qəmküsar 1919-cu il martın 14-də Tiflisdə qətlə yetirilib. Qətlin hansı şəraitdə və kimlər tərəfindən törədilməsi barədə müxtəlif fikirlər mövcuddur. Ən çox söylənilən onun Gürcüstan menşevikləri tərəfindən güllələnməsidir. Bu fikirlə razılaşmayanlar 1919-cu ildə Zaqafqaziyada menşeviklərin mövqeyinin o qədər də güclü olmadığını, həm də Əliqulu Qəmküsarın menşeviklərlə ciddi münaqişəsinin olmadığını əsas gətiriblər. Tədqiqatçıları onun 1917-ci ildə yazdığı "Qarğalar" adlı felyetonunda ölkədəki kadetlər, müsavatçılar, federalistlər və menşeviklərlə bərabər, bolşevikləri də günahkar saydığını diqqətə alır, onların hər birinin Əliqulu Qəmküsarın həyatına sui-qəsd edə biləcəyini bildiriblər.

Həmin vaxt Tiflis şəhərində yaşayan Əziz Şərifin "Borba" qəzetində verilmiş "Qəmküsar" adlı yazısında Əliqulu Qəmküsar gecə saat 11-də evə qayıdıb giriş qapısını döyərkən qonşuların şübhəsinə tuş gəldiyi, qorxudan vahimə keçirən qonşu qadınların hay-küyünə gələn qaradovoyun dalana açdığı atəşdən qətlə yetirildiyi bildirilib. Müəllifin "həyatımızın pərakəndəliyi... bir xalq dostunu alıb apardı" fikrinə əsaslananlar qətlin əvvəlcədən planlaşdırılmış hadisə olmadığı qənaətindədirlər.

Əziz Şərifin də yazdığı kimi, müsəlman həyatının elə bir sahəsi yoxdur ki, Əliqulu Qəmküsarın diqqətindən kənarda qalsın. Ruhanilərin, bəy və mülkədarların zülmü demokratiyanın zülmətdə qalması, gücsüzlüyü, qadınların hüquqsuzluğu onun yazılarında əksini tapıb, o, bəzən cəmiyyəti və onun adət-ənənələrini amansız tənqid atəşinə tutub. Müəllif Əliqulu Qəmküsar haqqında yazıb: "Amansız tale ona öz gücünü bir daha göstərmək imkanı vermədi və onu müsəlman demokratiyasının əlindən vaxtsız alıb apardı. Mərhum şair ən dəhşətli, ən faciəli bir şəraitdə dünyasını dəyişdi. Gecə saat 11-də evə qayıdıb giriş qapısını döyərkən qonşuların şübhəsinə tuş gəlir və... onu qətlə yetirirlər. İki gündən sonra - dəfn günü yerli qəzetlərdə kiçik qeyd peyda olur: "Martın 15-nə keçən gecə Moskovskaya küçəsində milisionerlər tərəfindən bir qatı cinayətkar öldürülmüşdür. Ölənin familiyası məlum deyil". Məqalədəki bu fikirlər isə Əliqulu Qəmküsarın yaşamış olduğu acınacaqlı həyatı əks etdirib: "Şair maddi cəhətdən son dərəcə təminatsız, tez-tez cırıq palto və yırtıq başmaqda ac-yalavac gəzib dolaşan, ürəyində intəhasız qəm-qüssə, baxışlarında insana sönməz sevgi daşıyan istedadlı şair idi. Və namərd bir insanın qaba gülləsi poeziyaya bu qədər dəyərli incilər bəxş etmiş qələmini onun əlindən aldı".

Əliqulu Qəmküsarın qətlini ədəbi ictimaiyyət Azərbaycan ədəbiyyatına, mollanəsrəddinçi hərəkata ağır zərbə kimi qarşılayıb. Görkəmli yazıçı Əbdürrəhim bəy Haqverdiyev bu itkinin ağrısını belə ifadə edib: "Əliqulu Nəcəfzadəyə atılan güllə "Molla Nəsrəddin" məcmuəsinin ürəyinə dəydi".

Nakam şairin ayrılığından doğan kədərini Cəlil Məmmədquluzadə isə belə qələmə alıb: "Təəssüflər edirəm ki, Əliqulu Nəcəfov kimi həqiqi və ləzzətli əhli-qələm və şairimiz bu dünyadan vaxtsız getdi və məcmuəni öz köməyindən məhrum qoydu". Və dostu, silahdaşı Əliqulu Qəmküsarın unudulmayacağını bildirib: "Nə qədər ki məcmuəmizin adı söylənilir, onun əziz və qiymətdar qələm yoldaşlarının qabaq sırasında Əliqulu Qəmküsarın - Cüvəllağı bəyin adı həmişə zindəbad alqışları ilə zikr olunacaqdır".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti Mətbuat Xidmətinin MƏLUMATI

Operativ Qərargahın Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Abşeron rayonunda iki günlük sərt karantin rejimi tətbiqi ilə əlaqədar olaraq "Azərişıq" ASC qarşıdakı günlər ərzində də gücləndirilmiş iş rejimini davam etdirəcək.

İstehlakçıların dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin olunması üçün Qəza xidmətləri minumum işçi sayı ilə öz vəzifələrini icra edəcəklər. Abonentlərimizdən xahiş edirik ki, hər hansı bir qəza halı yaranarsa 24 saat fasiləsiz fəaliyyət göstərən 199 çağrı mərkəzi ilə əlaqə saxlasınlar.

Onu da qeyd edək ki, istehlakçılar pandemiya dövründə ödənişləri onlayn qaydada, evdən çıxmadan həyata keçirə bilər. Bunun üçün "Azərişıq" ASC-nin rəsmi saytında (azerishiq.az) istənilən şəxs elektron ödəniş etmək imkanına malikdir. Sistemə bütün növ platformalardan və smartfonlardan daxil ola bilərlər.

# Beynəlxalq aləm

## Ümumdünya Peyvəndləmə Sammitində 8,8 milyard dollar toplandı

Ümumdünya Peyvəndləmə Sammitinin iştirakçıları 8,8 milyard dollar toplamışlar. Bu barədə tədbirin təşkilatçıları məlumat vermişlər.



Bu il Ümumdünya Peyvəndləmə Sammiti Böyük Britaniyada onlayn rejimində keçirilmişdir. Məqsəd dünyanın ən yoxsul ölkələrində səhiyyə sistemlərini gücləndirmək və koronavirusla mübarizə aparmaqdır.

Birləşmiş Krallığın Baş Naziri Boris Conson qeyd etmişdir ki, "bu, hamınızın gözlədiyi məbləğdir: Qlobal Peyvəndləmə və İmmunlaşdırma Alyansının işləməsi üçün növbəti beş il ərzində fantastik 8,8 milyard pul yığdıq".

Qeyd edək ki, Qlobal Peyvəndləmə və İmmunlaşdırma Alyansının 2021-2025-ci illərdə fəaliyyət göstərməsi üçün 7,4 milyard dollar pul toplamaq planlaşdırılırdı.

## İraqın şimalında PKK-nın dörd terrorçusu məhv edildi



İraqın şimalında Haftanin, Avaşin və Zap rayonlarında PKK terrorçu təşkilatının 4 üzvü zərərsizləşdirilmişdir. Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat vermişdir.

Terrorçuların olduğu yer pilotsuz hava aparatları sayəsində müəyyənləşdirilmiş, bundan sonra koordinatlar Hərbi Hava Qüvvələrinin komandanlığına verilmişdi. Hərbi aviasiyanın terrorçuların mövqeyinə endirdiyi zərbə dəqiq olmuşdur.

İraqın şimalında antiterror əməliyyatı davam edir.

## Vaşinqtonda etirazlar zamanı 100-dən çox polis əməkdaşı yaralanıb

ABŞ-ın paytaxtı Vaşinqtonda etiraz aksiyaları zamanı hüquq mühafizə orqanlarının çoxlu sayda əməkdaşları yaralanmışlar. Bu barədə ölkənin Baş prokuroru Uilyam Barr məlumat vermişdir.



Barr qeyd etmişdir ki, ötən şənbə günündən indiyədək hüquq mühafizə orqanlarının 114 əməkdaşı, o cümlədən federal agentlər yaralanmışdır. Onların çoxu Ağ evin yanında xəsarət almışlar. 22 əməkdaş xəstəxanaya yerləşdirilmişdir. Onların əksəriyyəti ciddi baş-beyin sarsıntısı keçirmişdir.

Baş prokurorun dediyinə görə, afroamerikalı Corc Floydun ölümündən sonra "Antifa" kimi ekstremist qruplaşmalar, həmçinin digər siyasi hərəkatların üzvləri sosial münaqişəni qızışdırmaq üçün vəziyyətdən sui-istifadə etmişlər. O, ABŞ şəhərlərinin küçələrində iğtişaşların törədilməsində xarici agentlərin də əli olduğunu iddia etmişdir.

## Meksikada10 ton narkotik maddə müsadirə olundu



Meksikanın ABŞ-la həmsərhəd olan Tixuana şəhərində böyük miqdarda narkotik maddə aşkarlanmışdır. Bu barədə Müdafiə Nazirliyi məlumat vermişdir.

Məlumata görə, partiyaya 7,8 ton marixuana, 2 ton metamfetamin, həmçinin 87 kiloqram kokain və 130 mindən çox sintetik fentanil opioid həbi daxil idi. Nazirlik qeyd etmişdir ki, müsadirə olunmuş narkotik maddələrin ümumi dəyəri 743,1 milyon pesoya (təxminən 34 milyon dollar) çatır. Tixuana Meksikanın ən kriminal şəhərlərindəndir. Bölgədə qətl cinayətlərinin yüksək səviyyəsi (2019-cu ildə təxminən 2,2 min) küçələrdə narkoticarət nöqtələri ətrafında münaqişələrlə əlaqədardır. Əvvəllər Tixuanada həmçinin narkotik maddə qaçaqmalçılığının marşrutları üzündən cinayətkar qruplaşmalar arasında münaqişələr baş verirdi.

## Avstraliyada uşaqbaz şəbəkəsi aşkarlandı

Avstraliya polisi ölkədə ən böyük uşaqbaz şəbəkələrindən birinin üstünü açmışdır. Şəbəkə üzvlərindən ikisi həbs olunmuşdur.



Yeni Cənubi Uels ştatında 21 və 26 yaşlı iki kişi tutulmuşdur. Onların hər ikisi yetkinlik yaşına çatmayanlara qarşı cinsi zorakılıq tətbiq etməkdə, uşaq pornoqrafiyası istehsal etməkdə və yaymaqda ittiham olunur. 4-7 yaşlı səkkiz oğlanın uşaqbazların qurban olduğu iddia edilir. Uşaqların bəziləri qohumdurlar.

Polisin verdiyi məlumata görə, cinayətkarlara qarşı 40 ittiham irəli sürülmüş və 14 uşaq təhlükəli şəraitdən çıxarılmışdır. Federal polis komissarının köməkçisi Lesa Qal bildirmişdir ki, "bu, son illər aşkarlanmış ən böyük cinsi istismar şəbəkəsidir".

İstintaq davam edir: polis uşaqbazların digər qurbanlarının şəxsiyyətlərini öyrənməyə çalışır.

## Azərbaycanda koronavirusa daha 338 nəfər yoluxub, 134 nəfər sağalıb

Azərbaycan Respublikasında 338 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 134 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1940-cı, 1957-ci (iki nəfər) və 1972-cü il təvəllüdlü dörd nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 6860 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 3871 nəfər müalicə olunaraq sağalıb, 82 nəfər vəfat edib, 2907 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 66 nəfərin vəziyyəti ağır, 73 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 328 min 385 test aparılıb.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## Bu gün Abşeron yarımadasının bəzi yerlərində qısamüddətli yağış yağacaq

Azərbaycanda bu gün gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin səhər yarımadanın bəzi yerlərində qısamüddətli, az yağış yağacağı gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək, gecə və səhər arabir güclənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 17-20°, gündüz 24-28° isti, Bakıda gecə 18-20°, gündüz 26-28° isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunundan 764 millimetr civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz təşkil edəcək.

Bu gün Azərbaycanın bəzi rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 27-32° isti, dağlarda gecə 8-13°, gündüz 16-21° isti olacağı ehtimal edilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, iyunun 6-da Abşeron yarımadasında arabir güclənən xəzri küləyinin əsəcəyi gözlənilir ki, bu da bəzi meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

Naxçıvan Muxtar Respublikasının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Dağlıq ərazilərdə dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 12-17°, gündüz 26-31° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 16-21° isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərinin, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarının bəzi yerlərində gündüz şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 25-30° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində gün ərzində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 12-17°, gündüz 22-27° isti, dağlarda gecə 8-12°, gündüz 15-20° isti olacağı ehtimal edilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarının bəzi yerlərində gün ərzində şimşək çaxacağı, arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 27-32° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarının bəzi yerlərində şimşək çaxacağı, fasilələrlə yağış yağacağı, dolu düşəcəyi ehtimal edilir. Səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-19°, gündüz 24-29° isti, dağlarda gecə 10-14°, gündüz 20-25° isti olacağı ehtimalı var.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı Ağalar Vəliyev Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi vəzifəsini icra edən general-leytenant Mürsəl Vəliyevə anası

**TEYYUBƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi vəzifəsini icra edən Mürsəl Vəliyevə anası

**TEYYUBƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi vəzifəsini icra edən general-leytenant Mürsəl Vəliyevə anası

**TEYYUBƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi vəzifəsini icra edən Mürsəl Vəliyevə anası

**TEYYUBƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi İqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya əzizi

**SÜDABƏ ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakıdan Əkbər Rəsulov, Anar Rəsulov və İsmayıl Rəsulzadə Məcnun və Müşfiq Rəsulov qardaşlarına ataları

**KƏRİM HÜSEYN OĞLU RƏSULOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7417
Sifariş 1365
Qiyməti 40 qəpik